

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Azərbaycan ZƏFƏR tarixi xronologiyasını yazır



4

# Moskvada Bakı vaxtı



2

SƏS

№ 069 (6994)

23 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycanın yaratdığı GEOSİYASİ REALLIQLAR




6

## Dünya Kitab və Müəlliflik Hüququ Günü



9

## Ermənistan rüşvət və korrupsiya bataqlığında...



10

## "Milli Şura"nın mitinqini "SOROS" maliyyələşdirəcək



11

## Ermənistan Haaqada nə axtarır?




15

## "Tik tok"dan necə pul qazanmaq olar?




16





# Moskvada Bakı vaxtı

***Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də Moskvaya işgüzar səfərə gedib. Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşılayıblar. Həmin gün Moskvada Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putin arasında təkbətək görüş keçirilib.***

## *Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin görüşü Cənubi Qafqazın siyasi mənzərəsini dəyişəcək*



"Azərbaycan Rusiya ilə əlaqələrin inkişafından çox razıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşdə deyib. Azərbaycan dövlətinin başçısı vurğulayıb: "Biz əlaqələrimizin inkişafından çox razıyıq. Artıq iki ildən çoxdur ki, 2022-ci ilin fevralında burada - Kremldə imzaladığımız və əsas siyasi sənəd olan, gələcəkdə münasibətlərimizin ardıcıl inkişafını müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə çərçivəsində işləyirik".

Vladimir Putin qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 4 milyard dolları ötüb, Azərbaycan iqtisadiyyatına Rusiya investisiyaları isə 6 milyard dollar təşkil edib: "Hökumətlərarası komissiya fəal işləyir və əməkdaşlığın bir çox maraqlı istiqamətləri var - həm real sektorda, həm də iqtisadi əməkdaşlıqda. Bu günlər biz Baykal-Amur Magistralının 50 illiyini qeyd edirik. Hamı yaxşı bilir ki, Sizin atanız bu layihənin icrasında böyük rol oynayıb". Vladimir Putin Ulu Öndər Heydər Əliyevin BAM-ın tikintisi məsələləri üzrə daimi komissiyaya sədrlik etdiyini xatırladaraq bildirib: "Demək olar ki, o, ən böyük layihələrdən birinin, bütün Sovet İttifaqı üçün çox vacib layihə olan BAM-ın rəhbəri olub. Biz buna görə ona çox minnətdarıq və onun əziz xatirəsini yad edirik".

## *Prezident Vladimir Putin: "Heydər Əliyev Baykal-Amur magistralının tarixində müstəsna, böyük rol oynayıb"*

Daha sonra Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal-Amur magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü olub. Rusiya Prezidenti Vladimir Putin görüşdə bildirib ki, "Baykal-Amur Magistralı dünyada ən böyük dəmir yolu arteriyalarından biri, gələcəyin yoludur."

Dünya tarixində bu layihənin bənzərinin olmadığını vurğulayan dövlət başçısı bildirib ki, BAM XXI əsr üçün qlobal logistikanı edir. Heydər Əliyev Baykal-Amur Magistralının (BAM) tarixində müstəsna, böyük rol oynayıb.

Rusiya Prezidenti qeyd edib: "BAM-ın tikintisinin başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik etməkdən səmimi-qəlbdən şadam. Onun atası, - BAM-ın bütün inşaatçıları bunu yaxşı bilir, - Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Baykal-Amur Magistralının tikintisinə kuratorluq edirdi, bu çox çətin layihənin baş tutması üçün əlindən gələni əsirgəmirdi".

Azərbaycan Prezidenti İlham Əliyev Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşdə Ulu Öndər Heydər Əliyevin xatirəsinə göstərdiyi ehtirama görə Rusiya Prezidenti Vladimir Putinə minnətdarlığını bildirib.

Azərbaycan dövlətinin başçısı deyib: "Əlbəttə, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə ehtiramla yanaşdığına görə Vladimir Vladimiroviç Putinə xüsusi təşəkkür sözləri ifadə edirəm. Biz yaxşı bilirik ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasında dostluq, mehriban qonşuluq münasibətlərinin əsasını məhz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev qoyublar. 2001-ci ildə Vladimir Vladimiroviç Putin Azərbaycana səfər etdi və bu, bizim birlikdə keçdiyimiz uzun bir yolun başlanğıcı oldu".

Rusiya Prezidenti Vladimir Putin diqqətə çatdırıb ki, BAM-ın tikintisi Sovet İttifaqının bütün respublikalarını birləşdirib.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə qeyd edib ki, "bu, həqiqətən də belədir. Onu (BAM-red.) təsadüfən ümumittifaq tikintisi adlandırmırdılar. Əlbəttə, biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər".

### Ermənistan, yoxsa Azərbaycan?

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri iki prezidentin 2024-cü ildə yenidən seçildikdən sonra ilk üz-üzə təmasıdır. Rusiya sülhməramlılarının vaxtından əvvəl Qarabağdan çıxarılması və Ermənistanla sərhədin demarkasiyası və delimitasiyası zamanı dörd kəndin Azərbaycana qaytarılması İrəvanın Qərblə yaxınlaşması kontekstində Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında işini dayandırmış üçtərəfli danışıqlar formatını canlandırmaq şansı verir. İlham Əliyevdən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada İrəvanın xarici siyasət strategiyası ilə bağlı ciddi söhbəti gözlənilir.

İlham Əliyevin aprelin 22-nə planlaşdırılan Moskvaya bir günlük işgüzar səfəri ötən həftənin sonunda Kremlin mətbuat xidməti tərəfindən açıqlanıb. "Rusiya-Azərbaycan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gələcək inkişafı ilə bağlı əsas məsələlərin nəzərdən keçirilməsi, o cümlədən aktual regional problemlər üzrə hərtərəfli fikir mübadiləsinin aparılması planlaşdırılır", - deyə bütün məlumatları əks etdirməyən qısa mesajda iki ölkə və onların liderləri arasında qarşılıqlı əlaqənin nüansları bildirilir.

Bu il iki lider öz ölkələrində keçirilən prezident seçkilərində inamla qalib gəldikdən sonra İlham Əliyevlə Vladimir Putinin ilk şəxsi görüşünə səbəb olan rəmzi hadisə Baykal-Amur magistral xəttinin tikintisinə başlanmasının 50 illiyi oldu. Rusiya prezidentinin iştirakı ilə Amur vilayətində əsas bayram tədbirləri yalnız iyulun 8-də baş tutsa da, Vladimir Putin və İlham Əliyev bu hadisəni nəzərəçarpacaq dərəcədə vaxtından əvvəl qeyd etməyi zəruri hesab ediblər. Azərbaycanın ümummilli lideri Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çalışdığı bir vaxtda Baykal-Amur Magistralının tikintisi ilə bağlı məsələlərə şəxsən nəzarət edirdi.

Rusiyada və Azərbaycanda yeni siyasi tsikllər başlayandan sonra iki lider arasında şəxsi təmaslara tez bir zamanda başlamaq zərurəti Cənubi Qafqazda dəyişən vəziyyətlə diktə olunur. Bu vəziyyət qeyri-sabit görünür və rəqabət aparan oyunçuların - bir tərəfdən Rusiyanın, digər tərəfdən isə Qərbin iştirakı ilə regionun inkişafı və təhlükəsizliyinin təmin edilməsi üçün bir neçə alternativ ssenarilər açır. Prezident Əliyevin səfərindən bir müddət əvvəl Moskva və Bakıda Rusiya sülhməramlılarının mandatı yalnız 2025-ci ilin noyabrında başa çatacaq Qarabağdan vaxtından əvvəl çıxarılmasına başlamaq barədə qərarın elan edilməsi xəbəri idi.

***Ardı Səh. 3***

# Moskvada Bakı vaxtı

Əvvəli-Səh-2

Bu hadisə barədə Rusiyada, Azərbaycanda və Ermənistanda verilən bəzi şərhlərdə bunun nə demək olduğu barədə fərziyyələr irəli sürməyə başladılar, hətta məsələnin hansısa gizli danışıqlar əsasında həll olunduğunu düşünənlər də oldu. Amma məsələnin kökündə, mahiyyətində dayananlar bunun üçtərəfli Bəyanatın şərtlərinə uyğun həll edildiyini şərh etdilər. Digər tərəfdən Rusiya sülhməramlılarının Qarabağda qalmasına dabir lüzum qalmamışdı, üstəlik indiki zamanda Moskvanın peşəkarlardan ibarət bu hərbçilərə ehtiyacının olduğunu da düşünmək lazımdır.

### Rusiyanın Azərbaycandakı hərbi mövcudluğu başa çatıb

"Kremldə danışıqlar ərəfəsində elan edilmiş Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması regional təhlükəsizliyin gələcək təmin edilməsində mühüm mərhələdir. İndi Azərbaycanın ayrılmaz hissəsi kimi Qarabağdakı vəziyyətə görə tam məsuliyyət birbaşa Azərbaycan dövlətinin üzərinə düşür və Moskva başa düşdüyünü nümayiş etdirir ki, Bakı bu problemi həll etmək üçün bütün lazımi resurs və imkanlara malikdir. Qəbul edilən qərar prezidentlər Putin və Əliyev arasında şəxsi etimad münasibətlərinin yüksək səviyyədə olmasının sübutudur ki, əsas təhlükəsizlik məsələləri birtərəfli qaydada deyil, onlar tərəfindən həll edilir. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 9-da üçtərəfli bəyanatında əvvəlcədən razılaşdırılmış Rusiya sülhməramlılarının vaxtından il yarım əvvəl ölkəni tərk etməsini şərtləndirən digər amil də Rusiyada yeni təhlükəsizlik təhdidləri olub. Söhbət Ermənistanın Avroatlantik strukturlara inteqrasiya planlarından, Qərbin İrəvan üzərində ABŞ və NATO-nun "təhlükəsizlik çətiri"ni açmaq cəhdlərindən gedir.

Son vaxtlara qədər Ermənistan öz ərazisində Qərbin mövcudluğunun güclənməsinə haqq qazandırmaq üçün ona istinad edirdi ki, Qarabağda Rusiya sülhməramlıları var və onların mövcudluğu balanslaşdırılmalıdır. Bu da öz növbəsində Qərbin Ermənistandakı mövcudluğunu artırmağa səbəb olub. Söhbət Moskva və Bakıda Aİ-nin gizli hərbi-polis missiyası sayılan Azərbaycanla sərhəddə avropalı müşahidəçilər adlanan və "humanitar missiyalar" adı altında Ermənistan vasitəsilə regiona nüfuzun digər formalarından gedir. Lakin indi Ermənistanda Qərbin oyununu davam etdirmək üçün bəhanə kimi Rusiya sülhməramlıları faktoruna istinadlar artıq işə yaramır. Xüsusilə vacibdir ki, bu qərar Kremldə ən yüksək səviyyədə Rusiya-Azərbaycan danışıqlarında da müzakirə olunacaq.

Prezidentlər Vladimir Putin və İlham Əliyev arasında Moskvada keçirilən danışıqlar ərəfəsində böyük beynəlxalq rezonans və BMT, ABŞ, Aİ, Türkiyə rəhbərliyinin reaksiya dalğasına səbəb olan ikinci hadisə ötən cümə günü Ermənistanın şimal-şərqində Bakının nəzarətinə keçəcək dörd kəndin ərazisində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı əldə olunmuş razılaşma oldu. Ermənistan və Azərbaycan baş nazirlərinin müavinləri Mher Qriqoryan və Şahin Mustafayevin sədriyi ilə sərhəddə baş tutan görüşdə tərəflər bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təsdiqləyiblər. Yeni sərhədlər yaratmadan, əksinə SSRİ-nin dağılması zamanı mövcud olan sərhədləri de-yure bərpa etmək qərara alınıb.

Danışıqların yekunu üzrə verilən birgə bəyanatda iki ölkənin komissiyaları sərhədlərin delimitasiyası prosesinin 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacağına dair razılığa gəliblər. Bundan əlavə, komissiyalar Ermənistan-Azərbaycan sərhədinin qalan hissələrinin delimitasiyası prosedurunu razılaşdıracaqları və anklavlar/eksklavlar probleminə də toxunacaqları barədə razılığa gəliblər. "Bu, mühüm nailiyyətdir. Mən bu hadisəni suverenliyimizin və müstəqilliyimizin inkişafında növbəti mərhələ üçün təməl daşı hesab edirəm. Bu qərar həm də bu hissədə və sərhəd xəttinin bütün uzunluğunda təhlükəsizlik risklərini əhəmiyyətli dərəcədə azaldacaq", - Ermənistanın baş naziri Nikol Paşinyan Bakı ilə razılaşmanı şərh edib.

Sərhədin demarkasiyası ilə bağlı Nikol Paşinyan Rusiya hərbçilərinin Azərbaycanla həmsərhəd ərazilərdən çıxarılmasını istisna etməyib (xatırladaq ki, 2020-ci ilin payızında ikinci Qarabağ müharibəsindən sonra 102-ci Rusiya hərbi bazasının dayaq məntəqələri Ermənistanın cənubundakı Zəngəzur bölgəsində yerləşdirilmişdi). "İndi baş verənlər, təbii ki, vəziyyətin əhəmiyyətli dərəcədə dəyişməsidir. Və təbii ki, situasiyanın əhəmiyyətli dəyişməsi bütün istiqamətlərə öz təsirini göstərəcək", - deyə Paşinyan ötən şənbə günü izah edib. "Sərhəd sülhün əlamətidir. Bu o deməkdir ki, Ermənistan və Azərbaycan sərhədçiləri qarşılıqlı fəaliyyət göstərərək sərhədi müstəqil şəkildə qoruya biləcəklər", - deyə o əlavə edib. Bundan əvvəl Rusiya sərhədçilərinin avqustun 1-də İrəvanın Zvartnots hava limanından çıxarılacağı barədə məlumat yayılmışdı.

*Prezident İlham Əliyev: "Vladimir Putin və Heydər Əliyev Azərbaycan ilə Rusiya arasında dostluq, mehriban qonşuluq münasibətlərinin əsasını qoyublar"*

Beləliklə, son günlər baş verən hadisələr Moskva ilə İrəvan arasında yeni münaqişə yaradır və görünür, bu, prezidentlər Putin və Əliyev arasında bazar ertəsi Kremldə keçirilən danışıqların əsas predmetinə çevriləcək. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ötən həftənin sonunda Rusiya mətbuatına verdiyi müsahibədə Ermənistanla münasibətlərdən danışarkən, ərazinin müəyyənləşdirilməsindən danışmazdan əvvəl "Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsinin, delimitasiyanın başa çatdırılmasının" zəruriliyinə işarə edib. İrəvanın israr etdiyindən daha çox Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının məsuliyyəti var.

ABŞ və Aİ İrəvanı Moskvadan qoparır

Sergey Lavrov Qarabağda məskunlaşdırılmış erməni əhalinin qondarma, separatçı qurum ləğv edildikdən sonra, guya Rusiya sülhməramlılarının hərəkətsizliyi ucbatından regionu tərk etməsi barədə bəyanatları "yanlış" adlandırıb. Bu baxımdan, cənab Lavrovun sözlərinə görə, o, vəziyyətin vicdanlı müzakirəsi üçün Rusiya və Ermənistan arasında ən yüksək səviyyədə təmasları davam etdirəcəyinə ümid edir. "Nikol Vovaeviç Paşinyan dedi ki, onlar Rusiya ilə olanları dəyərləndirirlər. Rusiyanın təhlükəsizlik, iqtisadiyyat, suverenlik üçün etdiklərini qiymətləndirmək çətindir, münasibətlərimizdə olanları və olanları qiymətləndirmək lazımdır. Ümid edirəm ki, prezidentlə təmaslar olacaq və orada bizim qərbli bədxahların irəli sürdüyü arqumentlər olmadan bunu açıq şəkildə müzakirə etmək mümkün olacaq", - Rusiya XİN rəhbəri bildirib.

Öz növbəsində, Vladimir Putinlə mümkün görüşü ilə bağlı suala Nikol Paşinyan belə cavab verib: "Görüş olacaq, çünki görüşməmək planımız yoxdur. Amma nə vaxt, necə, indi deyə bilmərəm".

**V.VƏLİYEV**

## "Moskva və Bakı Cənubi Qafqazda yeni geosiyasi reallıqda..."

*Rusiya mediası Prezident İlham Əliyevin bu ölkəyə işgüzar səfərinə geniş yer ayırıb*













Rusiya mediası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə işgüzar səfərinə və Rusiya Prezidenti Vladimir Putin ilə görüşünə geniş diqqət ayırıb. Xəbərlərdə ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından bu görüşün mühüm əhəmiyyət daşıdığı xüsusi vurğulanıb.

TASS Agentliyində yer alan xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin Kremldə rusiyalı həmkarı Vladimir Putinlə görüşünün iki dövlət arasında münasibətlərin inkişafına yeni təkan verəcəyinə əminlik ifadə olunur.

"RİA Novosti", "Moskovski Komsomolets" nəşrləri Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə Ümummilli Lider Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisinə mühüm töhfə verməsi barədə fikirlərini diqqətə çatdırıb.

"İnterfaks" nəşrinin xəbərində Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə təhlükəsizlik məsələləri, ikitərəfli münasibətlər və bir sıra digər mövzularda müzakirələr aparılacağını bildirdiyi qeyd olunub.

"News.ru" hər iki ölkə prezidentinin bu il yenidən ali dövləti vəzifəyə seçildikdən sonra ilk dəfə görüşdüklərini xüsusi vurğulayıb. "Onların daha əvvəl başladıqları işləri davam etdirəcəkləri gözlənilir. Politoloqlar hesab edirlər ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası məsələsində ümidverici irəliləyişdən sonra Moskva və Bakı Cənubi Qafqazda yeni geosiyasi reallıqda münasibətlərin inkişaf perspektivlərini müzakirə etmək niyyətindədirlər", - nəşrdə yayımlanan xəbərdə qeyd olunub.

"Arqumentı i faktı" nəşri yazır ki, Rusiya Prezidenti Vladimir Putin Ümummilli Lider Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisinə verdiyi töhfəni xatırladıb. Nəşr qeyd edib ki, Vladimir Putin Heydər Əliyevin SSRİ dövründə BAM-ın tikintisi ilə bağlı məsələlərə birbaşa nəzarət etdiyini və Rusiyanın buna görə ona minnətdar olduğunu vurğulayıb.

"Qazeta.ru" portalı Azərbaycan Prezidenti İlham Əliyevin "Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir" fikrini xüsusi vurğulayıb. "Bu gün iki dövlət başçısı Rusiya və Azərbaycanı birləşdirəcək Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsini müzakirə etməyi planlaşdırır. Eyni zamanda, Azərbaycan liderinin fikrincə, bu dəhliz yükdaşımaların təhlükəsizliyinin təmin olunması üçün mühüm əhəmiyyət kəsb edir", - deyə Rusiya nəşrinin xəbərində bildirilib.

"Ren.tv"də yer alan xəbərdə Prezident Vladimir Putinin Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin artmasını xüsusi vurğuladığına diqqət çəkilib. "Onun sözlərinə görə, bu rəqəm 4 milyard dollardan çoxdur. Bundan başqa, Rusiyanın yatırdığı 6 milyard dollarlıq sərmayə Azərbaycan iqtisadiyyatının bir hissəsini təşkil edir", - deyə telekanalın xəbərində qeyd edilib.

# Azərbaycan ZƏFƏR tarixi xronologiyasını yazır

**_2020-ci ildən Prezident İlham Əliyevin liderliyi ilə xalqın itirilmiş torpaqlarının qaytarılması Azərbaycanın Zəfər tarixi adlı yeni xronologiyasını yaradıb. O xronologiya ki, tarixin 270 ildən çox axınını dəyişib göstərdi ki, zaman ona hökm oxuyan şəxsiyyətləri xalqların həyatına bəxş edə bilir. Bəxş edir ki, itirdiklərini yenidən onlara qaytara bilsin._**

2024-cü ilin 19 apreli 2020-ci ildən qələbədən qələbəyə addımlayan Azərbaycanın şanlı tarixinə yeni bir hadisəni əlavə etməklə Zəfər xronologiyasını belə sıraladı: 2020-ci il sentyabrın 27-dən 10 noyabradək Azərbaycanın əldə etdiyi tarixi qələbə - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror əməliyyatı, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat. Bu, Zəfər, eyni zamanda qürur tarixidir.

### Xalqın qürur, namus və iffətinin xilası

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal altında olan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 ildən artıq zaman kəsiyinin axarını dəyişəcəkdi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın bir gün geri qaytarılması üçün mübarizəsinin davamçısı oldu cənab İlham Əliyev. O, tək ailəsinin deyil, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib.

Qarabağ məsələsi isə bir an da unudulmadı. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistandan dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanı çatdığını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi.

### 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox, ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında minlərlə şəhid, qazi, məcburi köçkünlükdə əzab çəkən insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq. Torpaqlarımızın azad olunmasından sonra onların hələ də ölkədə sifarişli iğtişaş yaratmaq cəhdləri isə xalqımız tərəfindən əsla unudulmayacaq. Çünki onlar müharibə zamanı həmrəy olan, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşən xalqla birlikdə olmadılar. Hələ üstəlik müharibədən sonra yeni iddialarla çıxışlar etdilər. Hanı Xankəndi, hanı Xocalı, deyib, Zəfərimizə kölgə salmaq istədilər. Lakin düşünmədilər ki, bu proseslərin hamısı eyni zamanda ola bilməzdi.



Beləliklə, aprel ayının 18-dən Rusiyanin sülhməramlı qüvvələri Qarabağı tərk etməyə başladıqdan sonra isə mövzuları bitmək də olan radikal müxalifətə xarici qüvvələrin qrandları hesabına iğtişaş törətmək əmri verildi. Bu dəfə isə "nə edək ki, həm qrandlar əldən çıxmasın, həm də gündəmdə qalaq" prinsipi ilə yeni iddialara başladılar. Toplaşmaq, guya xalqa yol göstərmək fikrinə düşdülər. Görəndə ki, toplaşmaq da onların özü kimi 90-larda qalıb, çəkilib bir kənarda dayanmaqdan başqa çarə görmədilər.

Bunun ardınca Qazaxın 4 kəndinin azad olunası barədə sənədin inzalanması isə xaricdən ermənilərə havadarlıq edənlər kimi, onlara da tutarlı cavab oldu.

### Neoimperialist ünsürlər olmasa...

Söz yox ki, illərlə regionda sabitliyin, iki qonşu dövlət arasında sülhün bərqərar olmasını istəməyən qüvvələr mövcud olub. Zamanla bunlar dövlətlər olaraq dəyişiblər də. Hazırda regionun sabitliyinə qarşı çıxan ABŞ və Fransadır. Ötən il antiterror əməliyyatından sonra bu qələbəni həzm edə bilmədiklərini açıqca nümayiş etdirən hər iki dövlət Ermənistana hərtərəfli köməklik göstərəcəklərini də açıqca bəyan etdilər. Lakin son hadisə-Azərbaycanla Ermənistan arasında vasitəçi olmadan təmas onu göstərdi ki, vasitəçisiz diplomatiya, eləcə də ABŞ və Fransa kimi neoimperialist qüvvələrin müdaxiləsi olmasa, Azərbaycan və Ermənistan sülhün əldə olunması istiqamətində ciddi nəticələrə imza ata bilərlər.

Qarabağ məsələsinin bitməsi ilə regiona və xüsusilə Azərbaycana təsir vasitələrindən məhrum olan ABŞ ciddi cəhdlə yeni MQ formatları tətbiq etməyə və regionu yenidən öz boyunduruğuna salmağa çalışır. Üçtərəfli Brüssel görüşü, burada Ermənistana verilən vədlər, Azərbaycana qarşı sərgilənən laqeyd münasibət bunu bir daha sübut edir.

Xalq olaraq buna bənzər hadisələrin 90-cı illərdə də şahidi olmuşduq. Sovet imperiyasının son tör-töküntüsü də regionu öz təsiri altında saxlamaq üçün eynilə bu gün ABŞ-ın yürütdüyü siyasəti həyata keçirirdi. Ermənistanın qızışdırılması, sərhədlərimizdə iğtişaşların yaradılması, onların silahlandırılıb torpaq işğal etməyə həvəsləndirilməsinin hər birini vaxtilə müşahidə etmişik. Hansı ki, Ermənistan sivil qaydada davranarsa, öz maraqlarından çıxış edərsə və başqalarının əlində alət olmazsa, regionda davamlı sülh tam şəkildə təmin oluna bilərdi və hazırda da bu, belədir.

Əldə olunan nəticələr - 7 dekabr və 19 aprel bəyanatları bir daha onun göstərir ki, Qərbin Azərbaycanın guya Ermənistana qarşı yeni müharibəyə başlayacağı barədə açıqlamaları cəfəngiyatdan başqa bir şey deyil. Bu, Ermənistanı qorxu altında saxlayaraq tam şəkildə öz iradəsinə tabe etdirmək siyasətinin tərkib hissəsidir.

Bəs ilahi ədalət? Bunu nə üçün ABŞ və Fransanın görməyə gözü yoxdur? Özlərini demokratiyanın beşiyi adlandıran dövlətlər heç bunun eşiyində belə dayanmağa layiq deyillər axı. Bu nə cür demokratiyadır ki, iki xalqın hansının haqlı, hansının haqsız olduğunu görə bilmir. Bir qərinə Azərbaycan torpaqlarını işğal altında saxlayan haqsız Ermənistanın yanında olanlar nə üçün Azərbaycanın dağılan yurdlarını, bir qərinə köçkün həyatı yaşayan insanlarını, məhv edilən dini-mədəni-tarixi abidələri görə bilmir? Nə üçün illərlə Azərbaycanın haqq səsini eşitmək üçün qulaqları kar oldu?

Bu, necə ədalətdir?..

### Zəngəzur dəhlizi: Zəfər xronologiyasının davamı

Kimin nəyi necə arzulamasından asılı olmayaraq bu xalqın taleyinə Zəfər xronologiyasını sıralamaq yazılıb. Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərinə düşən öhdəliyin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin parlaq ruhu bizimlədir. Çünki ağsaqqal olan yerdə Allah var, deyərlər. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, Zəfər tarixi xronologiyasını davam etdirə bilsinlər.

***Mətanət Məmmədova***

# Böyük QAYIDIŞ strategiyası: dirçələn Qarabağ və Şərqi Zəngəzurumuz



## *Prezident İlham Əliyev: "Biz - bu torpaqların sahibləri qurub-yaradanıq"*

***Azərbaycanın dilbər guşələrindən olan Füzulinin 27 ildən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən işğaldan azad olunması Vətən müharibəsində yeni tarix yazmış oldu. "Bu gün Füzuli rayonunun bir sıra yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!" – deməsi xalqımıza ən böyük müjdələrdən bir oldu. Artıq həmin zamandan bizi 3 ildər artıq bir məsafə ayırır.***

Bu gün Füzulidə Azərbaycan bayrağı dalğalanır. Füzuli rayonunun azad olunmasında iştirak etmiş əsgər və zabitlərimizin igidliyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrimizin 25 min 301 hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.Bu gün bu ərazidə işğaldan azad olunan digər ərazilərimiz kimi, abadlıq-quruculuq işləri görülür. 2021-ci il yanvarın 14-də təməli qoyulan Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı cəmi doqquz aya inşa edildi və həmin ilin oktyabrında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılışı oldu. Bu hava limanı dünya tarixində minalanmış ərazidə qısa müddətdə tikilən ilk hava limanıdır. Hazırda Şuşaya, Ağdama, Cəbrayıla, Zəngilana, Qubadlıya gedən qonaqlar da bu aeraportdan istifadə edirlər.



### BAŞ PLAN ƏSASINDA REALLAŞAN LAYİHƏLƏR

Qeyd edək ki, Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur – burada yüz mindən çox mina basdırılıb. Bu da quruculuq işlərində müəyyən əngəllər törədir. Buna baxmayaraq, orada aparılan bütün quruculuq işləri dövlətimizin başçısının nəzarəti altındadır.

Görülən işlər Baş planlar əsasında həyata keçirilir. Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Bir çox kəndlərdə inşaat işləri davam edir.

Böyük Qayıdış strategiyasını uğurla gerçəkləşdirən Azərbaycan işğaldan azad olunan ərazilərimizdə böyük abadlıq-quruculuq işlərini davam etdirir. Dövlət büdcəsindən ayrılan vəsait hesabına Ağdam, Füzuli və Laçın rayonlarında yollar və körpülər salınıb, su anbarları və su elektrik stansiyaları tikilir. İstehsal müəssisələrinin, sosial obyektlərin inşası, açılış mərasimləri görülən işlərin sürətindən xəbər verir. 2025-ci ildə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu isə cari ildə istifadəyə veriləcək. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. 10-dan çox kəndin Baş planı təsdiqlənib və bir neçə kəndin təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib.

### FÜZULİ ŞƏHƏRİNDƏ 2689 NƏFƏRİN MƏSKUNLAŞMASI TƏMİN EDİLİB

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları keçmiş köçkünləri doğma yurda aparır. Zəngilanın Ağalı, Laçının Zabux kəndi, Tərtərin Talış kəndi və başqa ərazilərdə əzəli sakinlər yenidən yurd salıblar. 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Belə ki, bu il Kərkicahan, Malıbəyli, Turşsu kəndləri keçmiş köçkünlərin ixtiyarına veriləcək. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar: "Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq".

Özünün yeni bir dövrünü yaşayan Füzuliyə də köç karvanları davamlı olaraq yola salınır. Daha 39 ailə olmaqla, 172 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Bakı şəhərinin Qaradağ rayonundan və respublikanın müxtəlif bölgələrindən yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb. Bugünkü köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış (Bakı şəhərindən 24 ailə (115 nəfər), Sumqayıt şəhərindən 5 ailə (22 nəfər), Füzuli rayonundan 4 ailə (10 nəfər), Beyləqan rayonundan 3 ailə (12 nəfər), Abşeron rayonundan 2 ailə (7 nəfər), Şamaxı rayonundan 1 ailə (6 nəfər) ailələrdən ibarət olub. Füzuli şəhərinə çatan ailələr doğma yurda qovuşmağın sevincini yaşayıblar. Bununla da Füzuli şəhərində 705 ailənin, yəni 2689 nəfərin məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

### FÜZULİYƏ 22 MİN ƏZƏLİ SAKİN KÖÇ EDƏCƏK



Məlumdur ki, ötən ilin oktyabrın 16-da Prezident İlham Əliyevin Füzuli rayonuna səfəri zamanı ikinci və üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının, inzibati binanın, idman kompleksinin, Cuvarlı və Qoçəhmədli kəndlərinin təməlini qoyması, Ağdam-Füzuli avtomobil yolunun tikintisi ilə tanış olması bölgənin sürətlə dirçəldilməsi istiqamətində fasiləsiz işlərin görüldüyünü göstərir.Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən təməli qoyulan ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb.İkinci yaşayış kompleksində ümumilikdə 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq. Üçüncü yaşayış kompleksinin inşası üçün isə 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq.

Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

2,4 hektar sahədə uşaq bağçası inşa ediləcək. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Bütün bunlarla yanaşı, Qoçəhmədli və Cuvarlı kəndləri tarixi ənənələri qorumaqla müasir üslubda inşa ediləcək.İşğaldan azad olunan Füzuli rayonunda 2026-cı ilin sonuna qədər 22 min nəfərin yaşaması planlaşdırılır. Füzuli şəhərindəki yaşayış məhəllələri ilə yanaşı, rayon ərazisində 10 kəndin bərpası gözlənilir.

### MÜASİR ÜSLUBDA İNŞA OLUNAN KƏNDLƏRDƏ TARİXİ ƏNƏNƏLƏR QORUNUR

Təməli qoyulan Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi nəzərdə tutulub.

Füzuli rayonunda təməli qoyulan Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi isə 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada 341 fərdi evin tikilməsi planlaşdırılıb. Qoçəhmədli kəndində birinci mərhələdə 204 fərdi ev inşa olunacaq. Bunun üçün 18,1 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 204 ailə - 710 nəfər köçürüləcək.Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.Hər iki kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək. İşğaldan azad edilmiş ərazilərdə ilk idman kompleksi Füzulidə inşa olunacaq.

Göründüyü kimi, Füzulinin yeni - bərpa, yenidənqurma, inkişaf dövrü başlayıb. Böyük Qayıdış strategiyası nəticəsində Qarabağ və Şərqi Zəngəzur yeni dövrünə qədəm qoyub.

***Zümrüd BAYRAMOVA***

*Azərbaycanın daha bir uğurunun, diplomatik qələbəsinin bütün dünya şahidi oldu və milli maraqlarınızın təmin olunması fonunda haqq-ədalətin qələbəsinin növbəti təntənəsini müşahidə etdi. Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası, eləcə də sərhəd təhlükəsizliyi üzrə Komissiyanın səkkizinci iclasının yekunlarına əsasən, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın sədrliyi ilə şərti sərhəddə, məhz 1990-cı illərin əvvəllərindən Ermənistanın işğalı altında olan 4 kəndin Azərbaycana qaytarılması barədə razılığa gəlinməsi haqqın, ədalətin daha bir qələbəsi, ölkəmizin növbəti Zəfəri deməkdir.*




# Azərbaycanın yaratdığı GEOSİYASİ REALLIQLAR

### Kəndlərimizin qaytarılması ilə bağlı gəlinən razılıq tarixi hadisədir

Bu vaxta qədər işğal altında olan 4 kəndin Azərbaycana qaytarılması barədə razılıq tarixi hadisə olaraq qəbul edilməkdədir. Əvvəla ona görə ki, 4 kəndin Azərbaycana qaytarılması heç bir mübahisə olmadan, iki tərəfin razılaşması ilə reallaşmaqdadır və nə regional, nə də qlobal miqyasda heç bir qıcıq belə doğura bilməz. Digər tərəfdən, həmin kəndlərin geri alınması müharibə yolu ilə deyil, danışıqlar yolu ilə baş tutur və bir damla da qan tökülmədən Azərbaycana məxsus torpaqlar geri qaytarılır ki, bu, ölkəmizin daha bir diplomatik qələbəsi və uğuru hesab olunur. Qazax rayonunun qeyri-anklav kəndlərinin Azərbaycanın nəzarətinə qaytarılması ilə bağlı razılaşmalar, yəni qarşı tərəfin, Ermənistan tərəfinin bununla bağlı razılığa gəlməsi həm də gələcək proseslər üçün də olduqca əhəmiyyətli hesab olunur. Hətta bəzi siyasətçilərin fikrincə, 4 rayonun Azərbaycana qaytarılması barədə razılıq delimitasiya prosesinin başladığını göstərir və ələlxüsus da sülh danışıqlarına ümidləri artırır. Məhz bu baxımdan da kəndlərimizin qaytarılması ilə bağlı gəlinən razılıq tarixi hadisə olaraq qəbul olunur.

### Regional siyasətdə daha bir güclü gediş sərgiləndi

Etiraf etmək lazımdır ki, Azərbaycan diplomatiyası ölkəmizin milli maraqlarını ustalıqla müdafiə edərək regional siyasətdə daha bir güclü gediş sərgilədi ki, bu geosiyasi reallığı danmaq mümkün deyil. Hətta bir çox ermənipərəst qüvvələr belə nə qədər çalışsalar da Ermənistan hökuməti razılığa gəlməkdən başqa çıxış yolu tapa bilmədi. Dünyanın bəzi ölkələri, məsələn, Fransa kimi hayların tərəfində olan ölkələr də Ermənistana mümkün qədər dəstək olsalar belə Ermənistan yenə də Azərbaycanın haqlı tələbi qarşısında aciz qaldı və razılığa gəlməyə məcbur oldu. Dünya ölkələrinin belə Azərbaycanın iradəsinə təsir edə bilmədiyini müşahidə etməkdəyik və məhz 4 kəndin heç bir mübahisə, mübaliğə belə olmadan qaytarılması fonunda cəsarətlə deyə bilərik ki, artıq ölkəmizin haqlı tələblərinin qəbul olunmasından başqa yolun olmadığının qəbul edilməsi ilə razılaşmaqdan başqa çıxış yolunun olmaması özü də məhz ölkəmizin, dövlətimizin formalaşdırdığı, yaratdığı geosiyasi reallıqdır.

### Almatı Bəyannaməsinə əsaslanılacağı barədə də razılığa gəlinməsinin əhəmiyyətini qiymətləndirməmək olmaz

Diqqətə çatdıraq ki, görüşün yekunlarına dair protokolda tərəflərin razılığa gəldikləri açıq şəkildə qeyd olunur. Bildirilir ki, delimitasiya prosesinin ilkin mərhələsində tərəflər əvvəllər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Bağanıs Ayırım, Aşağı Əskipara, Xeyrimli, Qızılqacıl yaşayış məntəqələri arasından birbaşa keçməsi barədə razılığa gəliblər. Onu da nəzərə çatdıraq ki, tərəflər həmçinin delimitasiya prosesinin 1991-ci il Almatı Bəyannaməsinə əsaslanacağı barədə də razılığa gəliblər. Azərbaycan tərəfinin təkid etdiyi bu məsələ ilə bağlı hadisənin əhəmiyyətini qiymətləndirməmək olmaz. Ona görə ki, sərhədlərin delimitasiyası prosesi Bakı ilə İrəvan arasında nəzərdə tutulan hərtərəfli sülh sazişinə nail olmaq yolunda da ən mühüm şərtlərdən biri hesab olunmaqdadır.

### Kəndlərin qaytarılması fəal iş aparıldığının, bu istiqamətində görülən işlərin məntiqi və müsbət nəticəsidir

Xatırlatmaq yerinə düşərdi ki, cənab Prezident İlham Əliyev 2020-ci ildə məhz işğal olunmuş sərhəd kəndlərinin Azərbaycana qaytarılması məsələsini qaldırdıqdan sonra bu istiqamətdə fəal iş aparıldığı artıq öz təsdiqini tapır. Məhz 4 kəndin Azərbaycana qaytarılması ilə bağlı əldə olunan razılaşmalar bu prosesin məntiqi və müsbət nəticəsi olaraq qəbul olunmaqdadır. Daha dəqiq desək, sözügedən kəndlərin qaytarılması bu istiqamətində görülən işlərin nəticələrinin qənaətbəxş olmasını göstərir. Həm də unutmaq lazım deyil ki, qazanılan uğurlar, nəticələr, sərhədlərin delimitasiyası ilə bağlı əldə olunmuş razılaşmalar digər kəndlərimizin də geri qaytarılması üçün real ilkin şərtlər deməkdir. Bir sözlə, barəsində qeyd olunan razılaşma həmin o qalan kəndlərin də, ərazilərin də geri qayıdacağı anlamına gəlir və həmin kəndlərin də əsl sahibləri olan azərbaycanlıların qısa müddətdə geri qayıdacağı zərrə qədər də şübhə doğurmur. Əgər bu gün hansısa kənar qüvvələr, haylara dəstək verməyə, onları qızışdırmağa çalışan güclər, üçüncü tərəflər rəsmi İrəvanın razılaşma qərarına təsir edə bilmirsə, bu, Azərbaycanın bütün dünyada, qlobal miqyasda, beynəlxalq müstəvidə gücünün, qüdrətinin göstəricisi olaraq qəbul edilir və əsl geosiyasi reallıq da məhz budur.

### Azərbaycan bu məqsədinə də çevik diplomatiyası sayəsində nail olub

Nəzərə çatdıraq ki, Azərbaycan strateji əhəmiyyətinə görə delimitasiyaya konkret olaraq Qazax rayonundan başlamaqda israrlı olub. Əgər bu məqsədinə də nail olubsa, deməli, çevik diplomatiyası sayəsində nail olub. Hətta bu reallığın belə rəsmi İrəvan tərəfindən də qəbul edildiyi təkzib edilə bilməz. Hər halda Ermənistanın baş naziri Nikol Paşinyanın məhz dörd kəndin Bakıya qaytarılmasını jurnalistlərə şərh edərkən etiraf etdikləri özü də bu həqiqəti təsdiq edir. "Baş verənləri öncədən həddən artıq qiymətləndirməyinizi istəməzdim, amma mən indi bunun lazımınca qiymətləndirilməməsini, buna az dəyər verilməsini də istəmirəm. Qeyd etmək çox vacibdir ki, Ermənistan və Azərbaycan ilk dəfə olaraq məsələni danışıqlar masası arxasında həll ediblər", deyə Paşinyan Ermənistan və Azərbaycanın ilk dəfə olaraq sərhədin bir hissəsi problemini danışıqlar yolu ilə həll edə bilməsindən sevincək olduğunu gizlədə bilməyib. Daha bir reallıq da məhz budur.

### Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratmağa nail olan cənab Prezident Azərbaycan diplomatiyasının yüksək peşəkarlığını sübut etdi

Etiraf edilməlidir ki, mürəkkəb olan və mütəmadi şəkildə dəyişməkdə olan dünya düzəninin çətin şəraiti fonunda kəndlərin geril qaytarılması barədə razılığa gəlinməsi Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratmağa nail olan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan Azərbaycan diplomatiyasının yüksək peşəkarlığını əyani şəkildə sübut etdi. Bu peşəkarlığın bütün dünya məhz Azərbaycan Prezidentinin, cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 44 günlük Vətən Müharibəsində Azərbaycanın parlaq qələbə qazandığı zaman və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən uzunmüddətli işğalına son qoyulduğu zaman onsuz da şahidi olmuşdu. Eyni zamanda, 2023-cü ilin sentyabrında keçirilən anti-terror əməliyyatı nəticəsində bütün Qarabağ bölgəsinin Azərbaycanın qanuni nəzarətinə qaytarılaraq ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyi zaman da bu peşəkarlıq öz təsdiqini tapmışdı. Bu peşəkarlığa azca da olsa şübhəsi qalanların şübhələri də məhz Ermənistanın və onun Qərb himayədarlarının Qarabağda saxta qurumun qalıqlarını saxlamaq və danışıqlar prosesini hansısa statusun müzakirəsi kontekstinə keçirmək cəhdlərinin tamamilə iflasa uğraması ilə yoxa çıxdı. Bununla yanaşı, rəsmi Bakı və Moskvanın konstruktiv atmosferdə və mehriban qonşuluq şəraitində olması fonunda Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazisindən tezliklə çıxarılması ilə bağlı hər iki ölkənin ali rəhbərliyinin birgə qərara gəlməsi və sülhməramlıların ərazilərimizi tərk etməyə başlamaları ilə də Bakının uğurlu diplomatiyasının qələbə qazandığı bir daha təsdiqləndi. İndi də kəndlərimizin qaytarılması ilə bağlı könüllü şəkildə razılığa gəlinməsi özü də məhz ölkəmizin yaratdığı geosiyasi reallığın təzahürü olaraq qəbul olunmaqdadır.

Sözsüz ki, Ermənistanın məhz Qərb dövlətlərinin əlində alət olmaqdan çəkinətək Azərbaycanla səmərəli dialoq qurmasının yeganə doğru yol, regionda davamlı sülhə nail olmaq üçün ən düzgün seçim olduğu bəllidir. Yəni, reallığın məhz bundan ibarət olduğu artıq gün kimi aydındır. Onsuz da baş verən proseslər də bunu açıq-aydın şəkildə göstərir. Məhz geosiyasi reallıq odur ki, ikitərəfli danışıqlar və razılaşmalar yolu ilə Cənubi Qafqazda çoxdan gözlənilən sülh və əmin-amanlıq bundan sonra əbədi olaraq hökm sürə bilər...

***İnam Hacıyev***

# Konstitusiyamızda dövlət dili kimi təsbit olunan milli varlığımız




*"Dövlət dilimiz, ana dilimiz - Azərbaycan dili ölkəmizdə hakim dildir"-*

**Ümummilli Lider Heydər Əliyev**

Ulu Öndər Heydər Əliyev deyirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm". Bu dil xalqımızın varlığını sübut edən dildir. Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan ana dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amildir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir.Ötən əsrin 70-ci illərində dövlət dilinin qorunması uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider Heydər Əliyev bütün ziyalıları, vətəndşlarımızı səfərbər edərək, ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb etmişdir. 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi.

## "AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ DÖVLƏT DİLİ AZƏRBAYCAN DİLİDİR"

Məlum olduğu kimi, 1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdir. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Belə bir zamanda Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdi. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edildi.1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

1978-ci il Konstitusiyası həqiqətən Heydər Əliyevin öz xalqı, öz vətəni qarşısında göstərdiyi böyük xidmət idi. Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir.

## XALQIN İRADƏSİ NƏZƏRƏ ALINMADAN QƏBUL OLUNAN QƏRAR

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaranmış xaos vəziyyət, özbaşınalıq hakimiyyətə gələn naşı və səriştəsiz şəxslərin idarəetmədəki təcrübəsizliyi müstəqilliyimizi uçuruma aparır, ölkəni məhvə sürükləyirdi. AXC-Müsavat hakimiyyəti dövründə bu özünü daha qabarıq şəkildə büruzə verirdi. Onlar heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və "türk dili" adlandırılmasını təklif edirdilər. Məlumdur ki, həmin illərdə referendum keçirmədən 1992-ci ilin dekabrında "Dövlət dili haqqında" Qanunu "müzakirə" edərək Azərbaycanda dövlət dilinin "Türk dili" olması barədə qərar qəbul etmişdir. Dövlət idarəçiliyində zəngin təcrübəsi olan Ulu Öndər Heydər Əliyev həmin məsələyə münasibət bildirərkən Milli Məclisin qəbul etdiyi qərarı pisləyərək bildirmişdir: "Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır".

## LATIN QRAFİKALI AZƏRBAYCAN ƏLİFBASI BƏRPA OLUNDU

Xalqın təkidli tələbi və xahişi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı.

"Dövlət dilimiz, ana dilimiz - Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir", - deyə Ulu Öndər bildirmişdir.

## DİL SİYASƏTİ - AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINA VERİLƏN TÖHFƏLƏR

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir. Ulu Öndər gənclərə tövsiyə edərək deyirdi: "Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan."

Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının göstəricisidir.

*Zümrüd BAYRAMOVA*

---



**Elçin Bayramlı**

## "Ölüm"dən sonrakı "həyat"

## Qlobal mafiyanın trilyonluq biznesi

***Orqan transplantasiyası məsələsi müəyyən vaxtdan bir ortaya atılır. Xüsusi adamlar bununla bağlı sentimental romanlar danışır, öldükdən sonra orqanlarını insanlara bağışladığını deyirlər. İlk baxışda humanist bir addım kimi görünsə də, heç də elə deyil. Məsələnin alt qatlarında daha dəhşətli faciələr yatır. Çünki insan öldükdən sonra göz qişasından başqa hər hansı bir orqanın köçürülməsi elmi və tibbi olaraq mümkün deyil. Söhbət yalnız ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsindən gedə bilər. Yəni, ölməmiş insandan zorakılıqla və əzabla çıxarılmış orqanlardan. Təbii ki, beyin ölümü kimi saxta diaqnoz qoyaraq.***

Buna şərait yaradılsa, həkimlər beyin ölümü diaqnozu qoyaraq xəstənin hələ tam ölməmişkən orqanlarını götürə bilərlər. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və dövriyyəsi trilyonlarla ölçülür. Beyin ölümü və digər bu tip tibbi diaqnozları təsdiq edən elmi mərkəzlər də həmin qlobal mafiyanın nəzarətindədir. Üstəlik, beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə beyin ölümü faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

Beyin ölümü belə insanın tam ölümü demək deyil. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var dünyada. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, birini xilas etmək üçün digərini öldürmək cinayət faktıdır. Hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanmaq fikri haqda şübhələr olmadıqda.

Bəzi ölkələrdə orqan transplantasiya haqda qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta bəzi müharibələr məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədilir. Misal üçün, müharibə törədilən ölkələrdə- Suriyada, Liviyada, İraqda, Əfqanıstanda, Ukraynada, Misirdə yüz minlərlə uşağın və girov götürülmüş digər sağlam insanların orqanları zorla çıxarılıb və varlı ölkələrə satılır.

Kasıbların qurban verilməsi hesabına varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial-psixoloji, mənəvi-əxlaqi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

Nəticələrlə yox, səbəblərin aradan qaldırılması ilə məşğul olmaq lazımdır. Biz bunu araşdırmalıyıq ki, niyə orqan çatışmazlığı yaranır və bunun qarşısını almaq üçün çalışmalıyıq. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır.

Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, kefini sürür, nəticədə orqanı sıradan çıxır, kimsə də insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır? Orqan bir şərtlə verilə bilər ki, o, bərpa olunan olsun, donor şəxsin ölümünə, əlilliyinə səbəb olmasın. Əks halda, orqan ticarətinin çiçəklənməsinə stimul yaranar ki, bu da həyatda ən ağır cinayətlərdən biridir. İnsan orqanlarının bağışlanması yalnız tibb elmi tam ölmüş insanın orqanlarından istifadə edə biləcək səviyyəyə çatdıqda reallaşa bilər. Hələlik isə, nüfuzlu alimlərin də qeyd etdiyi kimi, ölmüş insanın orqanları heç nəyə yaramır.

# Qiyməti ceyran belində olan sanatoriyalar

**_Ölkəmizdə sanatoriya-kurort mədəniyyətinin əsası SSRİ dövrünə dayanır. Bu xidmət növünün inkişafa başlaması 1930-cu illərə gedib çıxır. Azərbaycan SSRİ-nin sövründə ölkəmizdə 20 sanatoriya fəaliyyət göstərib. 1924-cü ildə ilk dəfə olaraq Azərbaycanın Mərdəkan qəsəbəsində 100 çarpayılıq istirahət evi təşkil edilib. 1925-1926-cı illərdə Azərbaycan Həmkarlar İttifaqları Şurası respublikada kurort işinin təşkili üçün praktik tədbirləri işlədi və bu tədbirlər respublikada sanator-kurort işinin yenidən inkişafının əsasını qoydu._**

1992-ci ildə Həmkarlar İttifaqlarının Kurortlarının idarə edilməsi üzrə Azərbaycan Respublikası Şurasının bazasında "Kurort" Səhmdar Cəmiyyəti təşkil edilib. Hazırda Cəmiyyətin tabeliyində olan "Bilgəh" kardioloji, "Abşeron" mədə-bağırsaq, "Qaranquş" böyrək, "Günəşli" əsəb sistemi, "Şıx" oynaq xəstəliklərini müalicə edən sanatoriyalar və müxtəlif xəstəlikləri müalicə edən "Naftalan" Kurort Birliyi respublika əhalisinə ixtisaslaşdırılmış sanator-kurort müalicəsi xidməti göstərir.

Bu sanatoriyalar bütün sovet məkanında məşhur, tələbatlı olub. Hər il 100 mindən çox insana xidmət göstərən kurort-sanatoriya xidməti vaxtilə Azərbaycanın şöhrətini bütün dünyaya yayıb. Naftalanın qara neftinin, Duzdağın şəfalı havasının sorağını eşidənlər dünyanın 4 yanından ölkəmizə axışırdı. Sovetlər birliyinin süqutundan sonra da fəaliyyətlərini davam etdirən sanatoriya və kurortlar bu gün də işlək vəziyyətdədirlər. Əksəriyyəti yenilənmə və quruculuq işləri ilə öz xidmətlərini genişlədib. Bu isə qiymətlərə böyük fərqlə təsir göstərib. İndi sanatoriyalarda müalicə ala bilmək hər adamın işi deyil. Kurort-sanatoriyalarda ödəniş olmadan xüsusi göndərişi olmaqla yalnız imtiyazlı şəxslər dincələ bilərlər.

Sanatoriya – kurort yollayışı, imtiyazlı şəxslərin sanatoriya və kurortlarda sanatoriya-kurort müalicəsi və istirahəti üçün dövlət tərəfindən təmin edilən sənəddir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli qərarına əsasən, Əmək və Əhalininin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sanatoriya-kurort yollayışları ilə təmin edilməsi üçün işləməyən əlilliyi olan şəxslər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar, II Dünya Müharibəsinin iştirakçıları, şəhid ailəsi statusu almış ailənin üzvü olan işləməyən şəxslər, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsində iştirak etmiş işləməyən vətəndaşlar, qəyyumun ailəsində, dövlət və qeyri-dövlət müəssisələrində təlim-tərbiyə olunan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, fövqəladə hallarda insanların xilas edilməsində və tibb yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlar imtiyazlı şəxslər hesab edilirlər.

Yollayışın əldə edilməsi məqsədilə imtiyazlı şəxslər yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin struktur bölməsinə və ya "DOST" mərkəzlərinə ərizə ilə müraciət edirlər. İmtiyazlı şəxslərdən başqa istənilən vətəndaş tələb olunan ödənişləri ödəməklə sanatoriyaların xidmətindən istifadə edə bilər.

Sanatoriyalarda müalicə kursu keçmək, dincəlmək istəyən vətəndaşlar üçün də imkanlar mövcuddur. Lakin qiymətlər hamı üçün əlçatan deyil. Misal üçün, Qaranquş uroloji sanatoriyasında 15 təqvim günü müddətində davam edən kurs üzrə yerləşmə, müalicə, gündə 3 dəfə qidalanma daxil olmaqla 2 nəfərlik otaqda adambaşına düşən ödəniş 1484 manatdır. 1 nəfərlik otaqlardakı müvafiq qiymət 1211 manatdır.



Abşeron mədə-bağırsaq sanatoriyasında 15 təqvim günü müddətində davam edən kurs üzrə yerləşmə, müalicə, gündə 3 dəfə qidalanma daxil olmaqla adambaşına düşən təqribi ödənişlər də kifayət qədər yüksəkdir. Əgər siz 15 gün sanatoriyada qalaraq müalicə olunmaq istəsəniz 2 nəfərlik otaqda 1 nəfər üçün ödəyəcəyiniz məbləğ 1176 manat olacaq. 1 nəfərlik lüks otaqda qalmaq üçün 1399 manat tələb olunur. 2 çarpayılıq ailəvi otaq üçün 2500 manat tələb olunur.

Günəşli nevroloji sanatoriyasında 15 təqvim günü müddətində davam edən kurs üzrə yerləşmə, müalicə, gündə 3 dəfə qidalanma daxil olmaqla 2 yerli VİP otaqda adambaşına düşən ödəniş 1116 manat, 1 nəfərlik otaqda 1294, 2 yerli otaqlarda adambaşına 881 manatdır.

Şıx sanatoriyasında 15 təqvim günü müddətində davam edən kurs üzrə yerləşmə, müalicə, gündə 3 dəfə qidalanma daxil olmaqla 2 nəfərlik otaqda bir nəfər üçün tələb olunan qiymət 1115 manatdır. Əgər otaq dəniz mənzərəlidirsə o zmaan bu məbləğ adambaşına 1165 manat olacaq.

Bilgəh sanatoriyasında müalicə almağa gələn yerli və xarici vətəndaşlar arasında maraqlı fərq müşahidə olunur. Sanatoriya yerli vətəndaşlara "hörmət" edərək qiymətləri bahalandırır, xarici vətəndaşlarü çün ucuzlaşdırır. 2 nəfərlik lüks otaqda 1 nəfər üçün ödəniş yerli vətəndaşlar üçün 1274 manat, xarici vətəndaş üçün 975 manatdır. 1 nəfərlik lüks otaqların qiyməti yerli vətəndaşlar üçün 1334, xaricilər üçün 1110 manatdır. Xarici vətəndaşlar üçün təyin olunan qiymət mövsüm üzrədir.

Nur Naftalan 4* Sanatoriumda 2 nəfərlik standart otaqda qalmaq və müalicənin 1 həftəlik paketi 1 nəfər üçn 770 manatdır. Otaqda tam şərait, gündə 3 dəfə qidalanma, müalicəyə başlamadan öncə check up və ilkin tibb paketi, o cümlədən naftalan nefti ilə müalicə və fizioterapiya prosedurları qiymətə daxildir. 1 nəfərlik standart otağın qiyməti eyni prosedur və qidalanma üçün 560, VİP otağın qiyməti isə 630 manatdır. 2 nəfərlik VİP otağın 1 nəfər üçün qiyməti 945 manatdır. Bu qiymətlər ən azı 1 həftə qalmaq şərti ilə qüvvədədir.

Naftalan sanatoriyası 1 nəfərlik standart otaqda qalmaq və müalicənin 1 həftəlik paketi 1 nəfər üçn 294 manatdır. Otaqda tam şərait, gündə 3 dəfə qidalanma, müalicəyə başlamadan öncə check up və ilkin tibb paketi, o cümlədən naftalan nefti ilə müalicə və fizioterapiya prosedurları qiymətə daxildir. 2 nəfərlik standart otağın qiyməti eyni prosedur və qidalanma üçün 1 nəfərə 252, 2 nəfərlik 2 otağın qiyməti isə 1 nəfər üçün 686 manatdır. 1 nəfərlik LUX otağın qiyməti 413 manat, 2 nəfərlik LUX otaqda 1 nəfər üçün qiymət 308 manatdır. Bu qiymətlər ən azı 1 həftə qalmaq şərti ilə qüvvədədir.

Duzdağ sanatoriyasında standart otaqda 1 həftə qalmaq səhər, nahar və şam yeməkləri, və həmçinin check up və duz mağaralarında müalicə, hava limanı-otel-hava limanı və otel-mağaralar-otel transferi də daxil olmaqla 712 manatdır. Bu qiymət 1 həftədən az olmayan rezervasiyalar üçüün keçərlidir. 2 nəfərlik otağın eyni şərtlərlə qiyməti 1369 manat, Junior suitin qiyməti 1781 manat, suitin qiyməti 2138 manatdır, villa otaq imkanları üçün 1 həftəlik qalmaq və müalicə 2375 manatdır. Qısası, 1 həftəlik Duzdağ müalicəsi almaq üçün külli miqdarda vəsait xərcləmək lazımdır.

Şıxov sanatoriyasının qiymətləri 1 həftəlik rezervasiya üçün minimum 800 civarındadır. 2 nəfərlik dəniz mənzərəli otaqda 1 nəfər üçün qiymət 843 manatdır. Bu qiymətə səhər, nahar və şam yeməkləri, müalicələr daxildir. Dəniz mənzərəsi olmayan 2 nəfərlik otaqda 1 nəfər üçün tələb olunana qiymət 807 manatdır. 1 nəfərlik otağın dəniz mənzərəsi olan və olmayan yerlərinə görə qiyməti müvafiq olaraq 950 və 914 manatdır.

Kəpəz sanatoriyasında nömrədə yaşayış, gündə 3 dəfə qidalanma, check up və başlanğıc tibb paketi, o cümlədən naftalan nefti ilə müalicə və fizioterapiya prosedurları qiymətə daxildir. 1 nəfərlik standart otaq 560, VİP otaq isə 630 manatdır. 2 nəfərlik standart otaqda 1 nəfər üçün qiymət 840, 2 nəfərlik VİP otaq üçün 1 nəfər üçün tələb olunana məbləğ 1260 manatdır. Bu qiymətlər ən azı 1 həftə qalmaq şərti ilədir.

Gold Naftalan 5* sanatoriyasında 1 nəfərlik standart otaqda yaşayış, gündə 3 dəfə qidalanma, check up və başlanğıc tibb paketi, o cümlədən naftalan nefti ilə müalicə və fizioterapiya prosedurları qiymətə daxildir. 1 nəfərlik Superior otaqda eyni prosedurlar 1034 manatdır. 1 nəfərlik Suit 1275 manat, 2 nəfərlik standart otaqda 1 nəfər üçün qiymət 1302, 2 nəfərlik Superior otaqda 1 nəfər üçün qiymət 1554 manat, 2 nəfərlik Suit otaqda 1 nəfər üçün qiymət 1807 manat, 2 nəfərlik Delux otaq üçün ödəniş isə 3500 manatdır. Qiymətlər rezervasiya ən azı 1 həftəlik olarsa qüvvədədir.

Çinar sanatoriyasındakı qiymətlər də bahalılığına görə digərlərindən geri qalmır. Bir vaxtlar fəhlənin, təqaüdçünün belə rahatlıqla gedib qaldığı, xidmətlərindən, müalicə kursundan istifadə etdiyi bu sanatoriyada indi ən sadə otaqda 1 həftə qalmaq və müalicə qəbul etmək 1nəfər üçün 762 manatdan başlayır. Bu qiymətə gündə 3 dəfə qidalanma, check up və başlanğıc tibb paketi, o cümlədən naftalan nefti ilə müalicə və fizioterapiya prosedurları qiymətə daxildir. Deluxe otaqda bu qiymət nəfər üçün 938 manat olacaq. 1 nəfərlik suit otaqlar imkanlarından asılı olaraq 1209-1906 manat aralığında dəyişir. 1 nəfərlik premium otaq 3906 manatdır. 2 nəfərlik standart, sadə otaqda 1 həftəlik 1 nəfər üçün ödəniş 1247 manatdır. 2 nəfərlik deluxe otaqlarda 1 nəfər üçün 1 həftəlik tələb olunan ödəniş 1524, 2 nəfərlik executive suite otaq üçün isə 1 nəfərlik ödəniş 1978 manatdır. 2 nəfərlik premium suitdə 1 həftə qalmaq 3906 manat, presidential suitdə isə 7875 manatdır.

**_Lalə Mehralı_**

ARAŞDIRMA







# Dünya Kitab və Müəlliflik Hüququ Günü

***23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür. 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilmiş qərara əsasən həmin gün qeyd olunur. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq, bu gün bütün dünyada qeyd olunur. Bu gün dünya şöhrətli dramaturqlar Vilyam Şekspir, Migel de Servantes və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın şərəfinə Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü kimi qeyd edilir. Hər üç yazıçını onların ölüm günü - 23 aprel 1616-cı il tarixi birləşdirir. Azərbaycanda isə həmin gün 1997-ci ildən etibarən ənənəvi şəkildə qeyd edilir və müxtəlif tədbirlərlə müşayiət olunur.***

Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında, qorunub-saxlanmasındakı rolunu göstərmək, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaqdır. Eyni zamanda, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub-saxlanmasına yönəltməkdir.

Xüsusi olaraq qeyd edək ki, Azərbaycanın müəllif-hüquq sisteminin yaradıcısı Ümummilli Lider Heydər Əliyevdir. Məhz Onun uzaqgörənliyi sayəsində 1993-cü ildə mərkəzi icra hakimiyyəti statusunda Müəllif Hüquqları Agentliyi yaradıldı və 1996-cı ildə müstəqil Azərbaycanın ilk əqli mülkiyyət üzrə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun qəbul olundu.

## ƏQLİ MÜLKİYYƏT SİSTEMİ BEYNƏLXALQ SƏVİYYƏYƏ YÜKSƏLDİ

Azərbaycanın əqli mülkiyyət sisteminin beynəlxalq səviyyəyə yüksəlməsinə yol açıldı. Ulu Öndər Heydər Əliyevin tövsiyələri əsasında Avropa məkanında, ilk dəfə olaraq, MHA tərəfindən "Azərbaycan folklor nümunələrinin qorunması haqqında" qanun layihəsi hazırlandı. 2002-ci ildə isə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun qüvvəyə mindi.

Müasir dövrdə "ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" unikal qanunlardan, 100-ə qədər normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müəllif-hüquq bazası mövcuddur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində, piratçılığın səviyyəsi müxtəlif sahələrdə nəzərə çarpacaq dərəcədə aşağı düşüb.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, adıçəkilən qanunlarda müasir dəyişikliklər edilib və onlara əlavələr olunub. Bununla yanaşı, müəllif-hüquq qanunvericiliyi zənginləşib, 2004-cü ildə "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun, 2012-ci ildə isə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul olunub. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilən düşünülmüş siyasətin nəticəsi olaraq, Azərbaycanın müəllif-hüquq sistemi beynəlxalq ekspertlərin rəyinə əsasən, MDB məkanında ən inkişaf etmiş sıralara daxil edilib və nümunəvi sistem kimi qəbul olunub.









## MİLLİ MUSİQİMİZƏ XAS NÜMUNƏLƏRİN ERMƏNİLƏR TƏRƏFİNDƏN OĞURLANMASI

Maraqlıdır, müəlliflik hüququ ilə qorunan obyektlər hansılardır? Ədəbi əsərlər - elmi nəşrlər, romanlar, poemalar, pyeslər, məlumat nəşrləri, qəzetlər və jurnallar, kompüter proqramları, məlumat topluları və multimedia məhsulları, filmlər və digər audiovizual əsərlər, musiqi və xoreoqrafiya əsərləri, təsviri sənət əsərləri, məsələn, rəsmlər, cizgilər, fotoşəkillər və heykəllər, memarlıq əsərləri, həmçinin reklam rəsmləri, coğrafi xəritələr və çertyojlar və s. ola bilər. Mənbələrdə qeyd olunduğu kimi, müəlliflik hüququ ilə qorunan əsərlərin müəlliflərinin şəxsi (qeyri-əmlak) hüquqlarla yanaşı, müstəsna əmlak hüquqları vardır. Onların əsərdən istifadə etməyə, yaxud razılaşdırılmış şərtlərlə əsərdən istifadə hüququnu digər şəxslərə verməyə müstəsna müəllif hüququ vardır.

Ermənilər tərəfindən Azərbaycan milli musiqimizə məxsus nümunələrin oğurlanması hallarına tez-tez rast gəlinir. Azərbaycan bəstəkarı Cahangir Cahangirovun "Zərif gülüşlüm" adlı musiqi əsərinin Arutyun Pambukçyan və Seda Tadevosyan tərəfindən "Qaram dardzats" adı altında ifa edilməsi mənimsənilməsi plagiatdır. Adlarını qeyd etdiyimiz "ifaçılar" tərəfindən Cahangir Cahangirovun adı göstərilməməklə onun əsərinin oxunması müəllif kimi hüquqlarının pozulduğunu göstərir. Azərbaycanın xalq artisti, bəstəkar Eldar Mansurovun "Bayatılar", " O gələndə", "Bir payız gecəsi", "Yarı səndə, yarı məndə" və "Gecələr keçir" əsərlərinin müxtəlif erməni "ifaçı"ları tərəfindən mənimsənilməsi və "Youtube" kanalında və digər internet şəbəkələrində yayılması onların bu sahədə də Azərbaycan xalqının sərvətlərini mənimsədiklərini göstərən dəlillər sırasındadır. Eləcə də Azərbaycan xalqına məxsus balaban, tütək, kamança və qanun (kanon) musiqi alətlərinin erməni milli musiqi alətləri kimi təqdim etmələri olsa da bunlara müvəffəq ola bilməyiblər. Həmin musiqi alətləri Azərbaycan xalq musiqisində qədim dövrlərdən bəri geniş istifadə edilən və populyarlığını bu günədək qoruyub saxlayan türk mənşəli alətlər olması öz təsdiqin tapıb.

Xatırladaq ki, Əlixan Səmədovun balabanda ifa etdiyi "Sən gəlməz oldun"u Civan Qasparyan balabanda təkrarlayaraq, öz adına çıxarıb. Onun oğurladığı Azərbaycan mahnıları sırasında Tofiq Quliyevin "Sənə də qalmaz", Rauf Hacıyevin "Saçlarına gül düzüm", Eldar Mansurovun "Melodiya" və "Gecə zəngləri" və s. var. Bütün bu və ya digər əsərlər ermənilər tərəfindən oğurlanıb.

Rus yazıçısı Bestujev-Marlinski və alman Haksthauzenin yazdıqları fikirləri xatırlatmaq yerinə düşərdi: "Ermənilər erməni dilində yox, tatar (türk) dilində mahnı qoşurlar", "Ən məhşur erməni şairləri öz əsərlərini yaymaq üçün həmişə türk dilində yazırlar". Bu fikirlər artıq hər şeyi demiş olur. Vaxtilə "Əsli və Kərəm", "Şah İsmayıl", "Aşıq Qərib" kimi Azərbaycan dastanlarını da öz adlarına çıxmağa çalışıblar.

## MƏHV OLMUŞ QİYMƏTLİ KİTAB VƏ QƏDİM ƏLYAZMALARIMIZ

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində minlərlə qiymətli kitab və qədim əlyazmalarımız məhv olmuş, tarixi və mədəni abidələrimiz dağıdılmış, işğal edilmişərazilərdə qeyri-qanuni aparılmış qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar ermənilər tərəfindən mənimsənilmişdir. Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Ermənilər öz ərazi iddialarını əsaslandırmaq üçün Azərbaycan torpaqlarının həqiqi sakinlərinə məxsus olan maddi və qeyri-maddi mədəni irsin mənimsənilməsi və erməniləşdirilməsi ilə bağlı müxtəlif yollardan istifadə ediblər. Əqli və maddi-mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla, özlərinə yalançı tarix formalaşdırıblar. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi, o cümlədən, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb.

Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənlər vəhşilik missiyalarını həyata keçiriblər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazandı. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sıradadır. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarına ziddir. Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistanda məhv edilən Azərbaycan abidələri də - Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir.

Ermənilər Azərbaycanın adət-ənənələrini, tarixi abidlərini, musiqini, musiqi alətlərini, mətbəxini və digər nümunələrini öz adlarına çıxmağa çalışıblar. Bu məqsədlə, ermənilər hər bir yola, hətta cinayətə də əl atıblar. Azərbaycan xalqının mədəni irsinin qorunması, ermənilər tərəfindən özününküləşdirilməsinə yol verilməməsi üçün ciddi addımlar atılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL

# Ermənistan rüşvət və korrupsiya bataqlığında...



***Ermənistanın son illər rüşvət və korrupsiya bataqlığında boğulması da sirr deyil. Məsələn, erməni jurnalist Yuri Manvelyan açıq-aşkar bildirir ki, artıq Ermənistanda korrupsiya və sui-istifadə halları çox geniş yayılıb və bu hal daha çox orduda özünü büruzə verir. Məcburi xidmətdən yayınmaq üçün ermənilər külli miqdarda rüşvət verirlər. Ermənistan hökuməti dəfələrlə açıqlama verərək rüşvət və korrupsiyaya qarşı mübarizə tədbirlərinin sərtləşdirildiyini bəyan etsə də, real mənzərə başqadır. Məsələn, Ermənistanın Korrupsiya ilə mübarizə komitəsinin sədri Sasun Xaçatryan açıqlama verərək bildirib ki, ölkədə korrupsiya ilə bağlı cinayət işlərinin sayı xeyli artıb. Komitə hazırda 1003 işə baxır.***

Bu, hələ işin rəsmi tərəfidir. Rəsmi korrupsiya ilə bağlı 1003 iş varsa, qeyri-rəsmi olaraq hansı rəqəmlərdən söhbət gedir? “Jogovurd” qəzeti isə hakim partiyanın deputatları ilə bağlı qalmaqallı məqalə dərc edib. Məlum olub ki, “məxməri inqilab”dan əvvəl evsiz olan və kirayələrdə sürünən Paşinyan komandası çox qısa müddət ərzində İrəvanın ən bahalı yerlərində ev-eşik sahibi olublar. Onlar arasında Hayk Konjoryan, Ovik Ağazaryan, Matevos Asatryan, Rüstəm Bakoyan, Vilen Qabrielyan, Arpi Davoyan, Qayan Yeqiazaryan, Arman Yeqoyan, Arsen Torosyan kimi adlar var. Siyahı isə kifayət qədər uzundur. Məlum olub ki, deputatların sahib olduqları mülk və mənzilləri aldıqları maaş ilə heç cür əldə etmək mümkün olmazdı. Bununla yanaşı, bir çox deputat mənzili və evi öz adına rəsmiləşdirməyərək dövlətdən kirayə pulu almaqdan da çəkinmir. Bu mənzərə isə Paşinyan hakimiyyətinin necə də miskin və rüşvətxor olduğunu bir daha sərgiləyir.

Məsələyə digər prizmadan yanaşsaq, Ermənistanda icra hakimiyyəti strukturlarının da korrupsiya və rüşvət içində boğulduğunu görərik. Paşinyan tez-tez hakimiyyətində qanad və qolların olmağını bəyan etsə də, əslində hazırda müxtəlif fərdlər və klanlar arasında nüfuz, vəzifə və pul uğrunda güclü mübarizə gedir. Bu isə regionlarda icra hakimiyyəti strukturlarını ələ keçirmək, büdcəni talamaq və rüşvət yolu ilə qısa müddətə varlanmaqdır. Tərəflər arasında icra başçısı seçilmək və təyin edilmək uğrunda ciddi mübarizə gedir.



*Lakin hökumətin apardığı qərbmeyilli xarici siyasət kursu yaşanan korrupsiya qalmaqallarının diqqətdən kənar qalmasına şərait yaradır*





Ermənistanda üzə çıxan korrupsiya və yeyinti sistemlərindən biri də deputatlara və nazirlərə məxsus şirkətlər vasitəsilə dövlət tenderlərində qalib gəlmək, büdcədən ayrılan pulu həzm-rabedən keçirməkdir. Bu şirkətlər dövlət tenderlərində qalib gəlir, böyük məbləğdə pulu əldə etdikdən sonra məhkəməyə müraciət edərək özünü müflis elan edir. Ədliyyə sisteminə hakim komandanın nüfuzunu nəzərə alsaq, bu sxemin kim tərəfindən idarə edilməsini də anlamaq o qədər çətin deyil.

Ermənistan hökuməti son illərdə korrupsiyaya qarşı mübarizə çərçivəsində addımları ölkəni idarə etmiş keçmiş oliqarxik elitanın siyasi-ictimai vəziyyətə təsirlərinin qarşısını almaq məqsəd ilə atdığını bildirir. ”İslahatlar” çərçivəsində hüquqi şəxslərdən nəğd pul və köçürmələrin qadağan edilməsi, habelə fiziki şəxslərin maliyyə dəstəyinin məhdudlaşdırılmasından sonra hakim partiyanın şübhəli maliyyə əməliyyatları həyata keçirməsi fərqli mətləblərdən xəbər verir. Məsələ ilə bağlı “Transparency International” Antikorrupsiya Mərkəzinin Ermənistandakı icraçı direktoru Sona Ayvazyan bildirir ki, ”lazımi vəsaiti əldə etmək üçün siyasi partiyalar çox güman ki, qanundan yan keçmək və qeyri-qanuni sxemlərdən istifadə etmək yollarını axtarırlar”.

Ermənistanın hakim “Vətəndaş Müqaviləsi” Partiyasının maliyyələşməsində istifadə edilən qanunsuz üsullar və yuxarıda adları sadalanan sadə vətəndaşlardan bu tip çirkli siyasi oyunlarda istifadə edilməsi davamlı xarakter alıb. Ermənistan hökuməti keçmiş avtoritar hökumətdən fərqli olaraq özünü demokrat, xalqın təyin etdiyi hakimiyyət olaraq adlandırsa da, korrupsiya əməllərinin sadəcə olaraq üslubu dəyişib, ancaq mahiyyət eynidir. Lakin burada qeyd etmək istədiyimiz digər mühüm məsələ Qərbin bu vəziyyətlə bağlı susqunluğudur. Hazırda Qərb siyasətçiləri, o cümlədən siyasi mərkəzləri pro-Qərb siyasi kurs nümayiş etdirən ölkələrdə, xüsusilə də Ermənistnda baş verən korrupsiya qalmaqallarına göz yumur və ya bu barədə danışmaqdan imtina edir. Lakin bu günlərdə liberal dünyanın əsas ”fact checking” habı olaraq qəbul edilən jurnalist araşdırmaları ”demokratik” Ermənistanda hakim partiyanın maliyyə maxinasiyalarını üzə çıxarıb. Əldə edilən məlumatlar aprel ayında Brüsseldə Ermənistanın dayanıqlılığına dəstək məqsədilə keçirilməsi planlaşdırılan Aİ-ABŞ-Ermənistan yüksək səviyyəli birgə görüşündən əvvəl yayımlansa da, ortaya çıxarılan faktlara hələ də hər hansı reaksiya və ya etiraz müşahidə edilməyib.

Son illərdə ənənəvi xarici siyasət və təhlükəsizlik arxitekturasında diversifikasiya etməyə cəhd göstərən Ermənistanın Avropa İttifaqı və ABŞ arasında siyasi, diplomatik, o cümlədən təhlükəsizlik sahələrində əlaqələri getdikcə dərinləşməkdədir. Məhz bu tendensiya Qərb dövlətlərinin Ermənistanın atdığı bəzi addımlarına göz yumması, bu barədə danışmaq istəməməsi ilə nəticələnməkdədir. Cari ilin aprel ayının 5-də Brüsseldə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında baş tutan üçtərəfli görüşün mətbuata açıqlanan kommunike sənədində müzakirə edilən mövzularla bərabər, rəsmi İrəvanın korrupsiya sahəsində əldə etdiyi “uğurlar” sadalanır. Sitat: ”Avropa İttifaqı və Birləşmiş Ştatlar Ermənistanın 2018-ci ildən bəri demokratik və ədalətli islahatlar və korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi əsaslı irəliləyişləri etiraf edir və Ermənistanın demokratiya və qanunun aliliyini daha da möhkəmləndirdiyinə görə ümumi dəyər və prinsiplərimizə uyğun olaraq onunla tərəfdaşlıq və dəstək verməyə davam etmək öhdəliyini ifadə edir”.

Adı çəkilən görüşdə tərəf olaraq iştirak edən Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrel isə çıxışı zamanı ”Biz Ermənistanın demokratiya, korrupsiya ilə mübarizə və qanunun aliliyinin bərqərar olması istiqamətində səylərini alqışlayırıq” - deyə bildirib. Beləliklə, Ermənistanda aparılan qərbmeyilli xarici siyasət kursu yaşanan korrupsiya qalmaqallarının diqqətdən kənar qalmasına şərait yaradır. Lakin araşdırmalar nəticəsində ortaya çıxmış qanunsuz fəaliyyətlər Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrelin simasında digər yüksək rütbəli Brüssel məmurlarının sözlərinin yalan olduğunu təsdiqləyir.

***Sevinc Azadi***

# "Milli Şura"nın mitinqini "SOROS" maliyyələşdirəcək

***Bu gün müstəqil Azərbaycan dövləti özünün ən parlaq və qürurverici tarixini yaşayır. Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, Fateh Sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz prinsipial məqsəd və hədəflərinə çatır. Qalib xalqın Qalib Lideri olan, Fateh Sərkərdə, Prezident İlham Əliyev itirilmiş tarixi Azərbaycan torpaqlarını xalqımıza qaytarır. 2020-ci il sentyabrın 27-dən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın əldə etdiyi tarixi qələbələr - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror tədbirləri, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılmasına başlanıldı, eyni zamanda 2024-cü il aprelin 19-da 4 kəndin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat imzalandı.***



Bütün bu uğurlar Azərbaycanın dostlarını hədsiz dərəcə də sevindirir. Xalq son yaşanan hadisə münasibəti ilə bayram əhval-ruhiyyəsindədir, insanlar sevinc göz yaşları içində Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkürlər etməklə bir-birini təbrik edirlər. Düşmən yenə də qəm dəryasındadır. Yenə də sayıqlamalar səsləndirir, bölgəyə sülhün və əmin-amanlığın gəlməsindən narahatlıqlarını ifadə edirlər. Yenə də sapı özümüzdən olan baltalar xalqın yanında deyil, düşmənin mövqeyindən çıxış etməyə üstünlük verir. Nə qədər millətin maraqlarına qarşı nifrət hissinə malikdilər ki, Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılmasına və 4 kəndin qaytarılmasına münasibət bildirmədilər. Daha doğrusu, xalqı təbrik etmək, gözaydınlığı verməkdən imtina etdilər. Əksinə, AXCP sədri Əli Kərimli Qənimət Zahidin TV-sinə açıqlamasında Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılmasını və 4 kəndin qaytarılmasını gözlənilən hal olduğunu və bundan sevinməyə dəymədiyini söyləyib. Halbuki bu məxluq bir qədər əvvəl sosial şəbəkə hesablarında sayıqlayırdı ki, rus sülhməramlıları bölgəni tərk etməyəcəklər. Həm də sərsəm tərzdə iddia edirdi ki, 4 kəndin qaytarılması mümkün görünmür. Eynilə "bir kənd alınsa, qulağımı kəsərəm" deyən həmkarı, cəbhəçi Qabil Məmmədov kimi ağzıgöyçəklik edirdi. Məlum olduğu kimi, Ə.Kərimlinin yaxın dostu, xaricdəki antimilli ünsürlərdən olan Q.Məmmədov şərəf və ləyaqətdən uzaq olduğu üçün qulağını kəsmədi. Əksinə, sifarişli şər və böhtan xarakterli ittihamlarını və söyüşlərini bir qədər də genişləndirdi. Ə.Kərimli də sərsəm proqnozlarına və təhlillərinə görə Azərbaycan xalqından üzr istəmədi. Çünki umacı şər və böhtandan yoğurulub.

## "Milli Şura"nın "izdihamlı mitinqi" Ə.Kərimlinin son şousu olacaq

Əslində, Ə.Kərimlinin xalqın mənafeynə zidd açıqlamalar verib, addımlar atması başa düşüləndir. O mənada ki, bu məxluq başdan ayağa qədər erməni lobbisinin təsiri alındadır. Koçaryanın, Sarkisyanın mövqelərinə haqq qazandırması, 4 kəndin qaytarılmasına etiraz edib, aksiyalar keçirən "döyüş qardaşlığı" terror təşkilatının üzvləri kimi pozucu xarakterli fikirlər səsləndirməsi Ə.Kərimlinin və C.Həsənlinin erməni lobbisinin sifarişi ilə hərəkət etdiklərini göstərir. Əgər belə deyilsə, ittihamlara cavab versinlər. Doğrudan da əsl azərbaycanlıdılarsa və Azərbaycanın maraqlarına önəm verilərsə, niyə o zaman sülhməramlıların Azərbaycanı tək etməsinə və 4 kəndin qaytarılmasına görə hakimiyyətə təşəkkür edib, xalqı təbrik etmirlər? Birmənalı şəkildə demək olar ki, bu üzdəniraq məxluqlar gücə və mədəniyyətə malik deyillər ki, xalqın sevincinə şərik olsunlar.

Çünki qeyd etdiyimiz kimi, müstəqil deyillər, erməni lobbisinə bağlıdılar. Bunu təsdiq edən başqa bir sübut onların zərurət olmadığı halda mitinq şousuna hazırlaşmalarıdır. Bəzi ermənipərəst dairələrin son siyasi, diplomatik qələbədən əndişələndiyi məqamda "Milli Şura" və AXCP mitinq keçirmək istəyinə düşüblər. Hansı sosial bazaya arxalanırlar? Müəmmalıdır və şübhəli görünür. Çünki sözügedən dağıdıcı ünsürlərin cəmiyyətdə heç bir sosial bazaları mövcud deyil. Bunu bir qədər əvvəl siyasi partiyaların təkrar qeydiyyatdan keçmələri zamanı lazım olan 5 min imzanı AXCP-nin toplaya bilməsi ilə sübuta yetirildi. O zaman AXCP-nin Ədliyyə Nazirliyinə təqdim etdiyi siyahıda 5315 nəfər üzvdən 2497 nəfər barədə məlumatlarda saxtakarlıqlar aşkarlandı. O cümlədən məlum oldu ki, 119 nəfər başqa partiyaların üzvləridir, 59 şəxs barədə məlumatlar təkrarlanıb, 609 nəfər isə ümumiyyətlə, AXCP üzvü deyil. Bu cür hal onu təsdiq etdi ki, Ə. Kərimli bütün siyasi fəaliyyəti yalnız saxtakarlıq üzərində qurulub, danışdıqları fikirlər yalandan başqa bir şey deyil. Dövlət böyüklük və humanistlik göstərərək AXCP-nin təkrar qeydiyyata alınmasına güzəştlər tətbiq etdi. Gözləmək olardı ki, Ə.Kərimli əlini sinəsinə qoyub, başını və sinəsini aşağı əyməklə təşəkkür ifadə edəcək.

Lakin yekəxanalığı və özündən müştəbeh olması səbəbindən siyasi mədəniyyət nümayiş etdirmədi. İndi isə 5 min imzanı təkrar qeydiyyat üçün təqdim edə bilməyən AXCP mitinq keçirmək xülyasına düşüb. Gülüş doğuran hal ondan ibarətdir ki, Ə.Kərimli mayın 5-nə planlaşdırdığı aksiyanın izdihamlı olacağını iddia edir. Lakin bu məxluq başa düşmür ki, hansı gücünə arxalanıb "izdihamlı mitinq" keçirmək xülyasına düşmüsən? Sizlərin yaxın qohum-əqrəbanızdan, dost tanışınızdan başqa üzə çıxarılası qüvvəniz varmı? Təbii ki, yoxdur. Bunu söz yox ki, "Milli Şura"nın bivec məxluqları da anlayırlar. Lakin "SOROS" fondunun mitinqin keçirilməsi üçün ayırdığı maliyyə vəsaitinə iştəhalı olmaları aksiyanın təxirə salınmasına imkan vermir. Lakin reallıq ondan ibarətdir ki, mitinq baş tutmayacaq. Bu dəfə də Ə.Kərimli özündən uydurduğu yalanları ilə iflasa uğrayan aksiyasına don geyindirməyə çalışacaq.

***İLHAM ƏLİYEV***

# Nə zaman orqan bağışlamaq günah sayılmaz?

***"Əgər söhbət diri insanın öz orqanını bağışlamasından gedirsə, İslam dininə əsasən deyilir ki, insanın öz orqanını bağışlamasının iki şərti var". Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib.***



O bildirib ki, birinci şərt qarşı tərəfin həyatı orqanın bağışlanmasına bağlı olsun, ikinci, orqanı bağışlamaq nəticəsində donorun həyatı təhlükəsi olmasın: "Bunlardan hər hansı biri olmasa, orqan bağışlamaq olmaz. Çünki insanın həyatı önəmlidir dedikdə yalnız digər insanların həyatı nəzərdə tutulmur. İnsanın özü də bir insandır. Fədakarlıq Allahın qanunlarına zidd getməyəcək miqdarda olmalıdır. Allah insanın öz həyatını da önəmli hesab edir".

Onun sözlərinə görə, ölü insanın orqanının bağışlanmasına gəldikdə isə bu zaman ölünün sahiblərinin icazəsi olmalıdır: "Ata ölübsə, onun övladları, varisləri, övlad ölübsə, valideynləri, xülasə meyidin varisləri icazə verməlidir. Yalnız o zaman icazə verə bilərlər ki, həqiqətən kiminsə həyatı orqana bağlı olmalıdır. Yoxsa, onu alıb saxlayıb satmaq kimi məqsədlə orqan bağışlamaq olmaz. Yalnız kiminsə həyatı bu orqana bağlı olsa və insanın öz həyatı təhlükəyə düşməsə icazə olar. Bu, diriyə aid qanundur. Ölüyə aid qanun da belədir ki, əgər ölünün varisləri icazə versələr, kiminsə həyatı yalnız bu orqana bağlı olsa, o zaman buna icazə vardır. Bunu alverə, ticarətə çevirmək şəriətlə doğru hesab olunmur. Bu o demək deyil ki, orqan bağışlayan adama pul vermək doğru deyil. Xeyr, söhbət ondan getmir. Söhbət ondan gedir ki, müasir dövrümüzdə bu orqan ticarətə çevrilib. Kiminsə, ehtiyacı olmadığı halda da bu edilir. Yəni söhbət ondan gedir.

İnsanın qəbrə bütöv getməsinə qaldıqda isə insan öz orqanları, əzaları üçün məsuliyyət daşıyır. İnsanın öz əzaları da qiyamət günü onu sorğu-sual edəcəklər. Əgər insan əzablarını doğru yolda, haqq-ədalət uğrunda dini-mənəvi dəyərlər uğrunda fəda edirsə, bu, çox gözəldir. Qiyamət günü həmin əzalar, orqanlar insanın cənnətə getməsinə səbəb olacaq. Əgər insan orqanlarını narkotik vərdişlərlə, digər mənfi hərəkətlərlə məhv edirsə, o zaman qiyamət günü orqanlarına cavab verməli olacaq".

***Söylü Ağazadə***

# ABŞ ata

***Bu günlər radikal müxalifət sevinc içərisindədir, çoxdandır, çöl armudu ifadəsində olan üzləri gülür. Bir-birilərini yaman təbrik edir, gözaydınlığı verirlər. Sosial şəbəkələrdə toy-bayramdadırlar.***



Müəllif bu karikatura ilə nə demək istəyib?

## FELYETON

Dedim, görən, bu, nə sevinc, nə təntənədir, belə? Yoxsa axır ki, xalqın sevincinə şərik olublar. Nəzər salam ki, nə, bunlar bir-birilərini ona görə təbrik edirlər ki, ABŞ Nümayəndələr Palatası Ukraynaya 61, İsrailə 26, Qəzzaya 9, Tayvana 8 milyard dollar yardım ayırıb. Deməli, radikalizm Ukrayna, İsrail və Tayvanın bu milyardlarla özlərini müdafiə edəcəklərini, bu milyardların bir parçasının isə Qəzzanın fəlakət yaşayan insanlarına böyük humanitar yardım olacağını bayram edir. Radikallardan biri isə sevinir ki, 61 milyard dollar Rusiya-Ukrayna cəbhəsində əsaslı dəyişikliyə səbəb olacaq. Və bunu elə təntənə ilə deyir, adam məəttəl qalır ki, bunların ürəyində heç insan sevgisi yoxdur? Bunlar insanların bir-birini qırmasına nə üçün belə sevinirlər? Söhbət müharibədən gedirsə, burada həyatını itirən milliyyətindən asılı olmayaraq insandır. İnsanın məhvinə bu qədər sevinməyin adı nədir, görəsən?

Bunları sadalamaqda məqsədim bir-birini təbrik edənlərin, bunu öz qələbəsi hesab edənlərin ABŞ-ni bir ata, həm də müqəddəs ata kimi görmələri, onu təqdir etmələri, çoxsaylı misallar gətirməklə bu atanın müqəddəsliyini zirvəyə qaldırmalarını nəzərlərə çatdırmaqdır.

Burada deyirlər bax, köpəyoğlunun qrandı. Lala dil, kora göz, kara qulaq verir. Hələ üstəlik baş tutmayan 21 aprel mitinqinin 5 maya təyin olunmasına da güc verir. Güc? Əsla. Bu güc yalnız xalqdan alına bilər. Radikallar isə xalq sevgisini çoxdan itiriblər. Böyük ümid bəsləyirəm ki, 5 may mitinqi də 21 apreldəkinin yanına dəfn olunacaq.

Bu, məsələnin bir tərəfidir, söz gəldi, dedim. Lakin ABŞ-ni özünə ata hesab edənlərin bu vur-həşiri əsla gözdən qaçan deyil. Fikirləşirəm, həm də əməlli-başlı, lakin xatırlamıram Azərbaycanın suyunu içib, çörəyini yeyən bu ABŞ sevdalılarının öz xalqlarına aid olan uğurları bircə dəfə belə təntənə ilə qeyd etdiyini, əsla xatırlamıram. Nə olar ki, satdıqları torpağı başqasının geri almasına, buna heç olmasa, bir təbəssüm edərdilər. Ki, xalqım sərvəti düşməndən geri alındı. Bir vaxt bu, bir xəyanətdir ki, olmuşdu, axı bu torpaq bu xalqın idi...

Mən də oturub, nəyi qoyub nədən danışıram ey... Əşi, bu ABŞ atanı ona görə başları üzərinə qaldırıblar ki, "kişi" kisənin ağzını açıb. Ukraynaya, Qəzzaya, nə bilim haraya, kimə bu qədər dollar verəndə, bu radikallara gör nə verib ki, özləri də sual edirlər ki, 5 may mitinqi Qərbin, yoxsa Vətənin sifarişidir. Kor kor, gör gör ki, Qərbin sifarişi olmadığını iddia edənlərin bu cür sual verib cavablandırmasının özü onun sifariş olduğunun təsdiqidir.

Odur ki, bunların ABŞ atanı qoyub bizim sevincimizə şərik olmasını düşünmək belə günahdır. Hansı ki, ötən həftədən bəri sevinci sevinc üzərinə yaşayır bu xalq. Vəssalam, ABŞ atasına sevgisi xalqa sevgisindən üstün olanlardan bir az danışdım...

***Mətanət Məmmədova***





# Dəli yığıncağı

*ABŞ Konqresinin Nümayəndələr Palatasında təsdiqlənən Ukraynaya yardım paketi respublikaçılarla demokratları üz-üzə qoyub*

Kiyevə təqribən 61 milyard dollarlıq əlavə maliyyə ayrılmasına dair qanun layihəsi ABŞ Konqresinin Nümayəndələr Palatasında mühafizəkarların müqavimətini dəf edib və çərşənbə axşamı, aprelin 23-də Senat tərəfindən təsdiqlənə bilər. Bu baş verən kimi prezident Co Bayden onu dərhal imzalayacağına söz verib. Sənədin təsdiqi demokratlar tərəfindən sevinclə qarşılanıb. Bununla belə, bu, Respublikaçılar Partiyasını ciddi daxili böhrana sürükləyib və Nümayəndələr Palatasının sədri Mayk Consonun üzərində real istefa təhlükəsi yaranı.b Cənab Consonun özü də "inandığı şeyi etdiyini" iddia edir.

Aprelin 20-də Nümayəndələr Palatası aylarla davam edən müzakirələrdən sonra Mayk Conson tərəfindən dörd ayrı sənədə bölünmüş 95 milyard dollarlıq milli təhlükəsizlik qanun layihəsini təsdiqləyib. Prezident Co Baydenin keçən il qanunvericilərdən tələb etdiyi bu məbləğ idi. Konqresin hər iki palatasının qanunvericiləri partiyalararası və partiyadaxili dərin fikir ayrılıqlarına görə hələ də ən böyük məbləğin - 61 milyard dolların Ukraynanı dəstəkləmək üçün ayrılması nəzərdə tutulan sənədlə razılaşa bilməyiblər. Bununla belə, fevral ayında Demokratlar və Respublikaçılar Senatda razılığa gələ bilib və qanun layihəsi Konqresin yuxarı palatası tərəfindən təsdiqlənib.

Bununla belə, Nümayəndələr Palatasında vahid qanun layihəsinin müəyyən müddəalarını tənqid etmək üçün bir neçə qrup meydana çıxıb. Daha sonra onun keçməsini asanlaşdırmaq üçün spiker Mayk Conson sənədi dörd hissəyə - İsrail, Ukrayna, Tayvana yardım və əlaqədar tədbirlərə bölüb. "XXI əsrdə gücdən istifadə yolu ilə sülh" adlı son sənəddə ABŞ prezidentinə Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etmək səlahiyyəti verilib, həmçinin Ukraynanın maraqları naminə Rusiyanın aktivlərinin müsadirə edilməsi ilə bağlı təkliflər yer alıb.

Beləliklə, qanunvericilər seçicilərinin narazılığına səbəb olmadan sənədlərin hər birinə ayrıca səs vermək hüququ qazanıblar. Əks halda, İsrailə yardımdan narazı olan demokratların, Ukraynaya yardımdan narazı olan respublikaçıların sayı kritik həddə çata bilər və qanun layihəsi prosessual münaqişələrdə batmaq təhlükəsi ilə üzləşə bilər. Aşağı palatadan keçdikdən sonra sənədlər yenidən birləşdirilərək Senata təsdiq üçün göndərilib. Yuxarı palatadakı Demokratik çoxluğun lideri Çak Şumer artıq paketin çərşənbə axşamı, aprelin 23-də müzakirə ediləcəyini, bundan sonra onu dərhal imzalayacağını vəd edən Co Baydenin masasında olması lazım olduğunu bildirib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, "Ukraynaya yardım göstərmək qərarı gözlənilən idi". O, əmindir ki, belə bir addım "Amerika Birləşmiş Ştatlarını daha da zənginləşdirəcək və Ukraynanı daha tez məhv edəcək, Kiyev rejiminin təqsiri üzündən daha çox ukraynalının ölümünə səbəb olacaq". Lakin Moskvada belə bir qərar gözlənilsə də, ABŞ Konqresinin Nümayəndələr Palatasında Kiyevə dəstək verən tərəfdarlar onun əleyhdarları ilə şiddətli mübarizədə Kiyevə yardımın təsdiqlənməsinə zəmin yaradırdılar. Aşağı palatada xarici yardım paketi ilə bağlı səsverməyə hazırlıq




çərşənbə günü Demokrat üzvlərin və respublikaçıların onlara qoşulması sayəsində Prosedur Komitəsindən təsdiq alındıqdan sonra başlayıb. Onda da aydın idi: belə yanaşmaya görə spikerə partiyadaşları tərəfindən yaxşı münasibət göstərilməyəcək.

Eyni zamanda, hətta Ukraynaya yardımı dəstəkləyən bəzi respublikaçılar sənəddə Mayk Consonun Amerika sərhədlərini qorumaq üçün dəfələrlə vəd etdiyi tədbirlər olmadığına görə ona qarşı çıxıblar. Bu respublikaçılardan biri Nümayəndələr Palatasının üzvü Çip Roydur ki, o, Ukraynanın səylərini dəstəkləsə də, ilk növbədə öz sərhədlərinin təhlükəsizliyindən narahat olub. Komitənin səsverməsindən sonra o, sosial şəbəkədə X-də yazıb: "Mən bu gün xeyrə səs verdim... Bu qanun layihələri əvvəlcədən müəyyən edilmiş nəticəyə - 100 milyard dollarlıq xarici yardım paketinin təsdiqinə nail olmaq üçün uydurulmuş proses vasitəsilə irəli sürülüb, lakin bu qanun layihələri 100 milyard dollarlıq xarici yardım paketinin təsdiqini təmin edə bilməyib". Konqresmen xatırladıb ki, spiker əvvəllər sərhədin möhkəmləndirilməsi ilə bağlı tədbirlər görülmədən sənədlər paketini səsverməyə çıxarmayacağına söz verib.

### ABŞ Ukrayna və İsraili necə ayırdı

Nümayəndələr Palatası sənədlər üzərində işləməyə davam edib. 316 deputat İsrail, Ukrayna və Sakit Okean regionunda müttəfiqlərinə kömək üçün qanun layihəsinin bölünməsinin lehinə, 94-ü isə əleyhinə çıxıb. Nümayəndələr Palatasının üzvləri paketin bu formada qəbulu ilə razılaşıblar, ona əlavə müzakirələr və düzəlişlər olmadan sürətli bir prosedurdan keçmək üçün yaşıl işıq yandırılıb.

Müxalifətçi mühafizəkarlar səylərinin puç olduğunu başa düşsələr də, yenə də sənədə dəyişiklik etməyə çalışıblar. Məsələn, Marjorie Taylor Greene ABŞ ordusunun Ukraynaya yardım göstərməsinə səs vermək üçün Konqres üzvlərinə düzəlişləri təqdim edib. Bundan əlavə, paketin əleyhinə çıxış edən Ukrayna əsilli birinci konqresmen Viktoriya Spartsın mövqeyi böyük sürpriz olub. Xüsusilə, düzəlişi ilə o, Kiyevə iqtisadi - qeyri-hərbi yardımı sənəddən çıxarmağı və Amerika ordusunun arsenallarından Ukraynaya silah ötürülməsini qadağan etməyi təklif edib. "Mən Ukrayna ilə bağlı həmişə çox prinsipial mövqe tutmuşam. Təəssüf ki,



bu mövqe Konqresdə çoxları tərəfindən geniş yayılmır. Ukraynanın Amerika üçün heç bir əhəmiyyətinin olmaması və ya Ukraynaya dəstəyin nəzarətsiz, boş çeklərlə olması arasında yanlış seçimimiz var. Və bu mövqelərin hər ikisi Ukrayna xalqının maraqlarına uyğun deyil. Onun fikrincə, "Prezident Bayden Amerika xalqını sərhəd məsələlərində uğursuzluğa düçar etdi" və Ukrayna Prezidenti Vladimir Zelenski "Ukrayna xalqının ümidlərini doğrultmadı".

Buna baxmayaraq, bütün qanun layihələri səsvermədən uğurla keçib və Mayk Consonun mərci öz bəhrəsini verib. 360 konqresmen "XXI əsrdə gücdən istifadə yolu ilə sülhün lehinə", 58-i əleyhinə səs verib. Sakit okean regionu üçün vəsait ayıran qanun layihəsi böyük səs fərqi ilə dəstəkləndi (385 lehinə və 34 əleyhinə). 366 konqresmen vəsaitin İsrailə köçürülməsinin lehinə çıxış edib. Kiyevin maliyyələşdirilməsi layihəsi ən az - 311 səs toplayıb. Demokratlar və 101 Respublikaçılar tərəfindən yekdilliklə dəstəklənib, 112 mühafizəkar isə buna qarşı çıxıb.

### Ukrayna seçki yarışında həm demokratlara, həm də respublikaçılara mane olur

Demokratlar Ukrayna qanun layihəsinin qəbulunu səbirsizliklə gözləyirdilər və hətta Ukrayna bayraqları ilə gəzirdilər. Sənədin təsdiq olunduğu məlum olanda, onları elə sevincə yelləməyə başladılar ki, bununla da rəqibləri respublikaçıları hiddətləndirməyi də bacarıblar. Konqresmen Tomas Massi Konqresdən bir video yayımlayaraq, demokratların Mayk Consonun "təslim olmasını" qeyd etdiklərini şərh edib. Əvvəllər spikerə etimadsızlıq səsverməsi proseduruna başlayacağı ilə hədələyən xanım Qrin həmkarına belə cavab verib: "İşdən çıxarılması üçün ərizə".

Lakin cənab Consonun özü, yumşaq desək, Ukrayna qanun layihəsinə səsvermədən sonra baş verənlərdən heç də sevinməyib. "Düşünürəm ki, ölkədəki insanların əksəriyyəti Nümayəndələr Palatasında yalnız bir bayraq dalğalandırmalı olduğumuzu başa düşür və razılaşır. Və düşünürəm ki, biz bunun necə bir bayraq olduğunu bilirik", - deyə spiker jurnalistlərə açıqlamasında bildirib.

Onun mətbuata çıxışı özünə haqq qazandırmaq cəhdi kimi görünüb. Natiq öz müdafiəsində dünyanın "barıt çəlləyi" olduğunu və "Rusiya, İran və Çinin birlikdə işlədiyini" və ABŞ-ın "rifahı və təhlükəsizliyi üçün qlobal təhlükə yaratdığını" bildirib. Spiker həmçinin xatırladıb ki, onun sənədlər paketinin versiyası münaqişənin dayandırılması ilə bağlı Co Bayden administrasiyasının cavabdehliyini, borc alətini və Rusiyanın Ukrayna hesablarının bir hissəsini ödəyəcəyinə zəmanət verən qanun layihəsini nəzərdə tutur. "Mən bilirəm ki, qanunu tənqid edənlər var, başa düşürəm ki, bu mükəmməl qanun deyil", o, köhnə hərbi deyimi bir daha xatırlayaraq əlavə edib: "Biz öz adamlarımızdansa, güllə göndərməyi üstün tuturuq".

Lakin onun mövqeyini xəyanət hesab edən və özünün də inandığı vədləri xatırladan ifrat sağçı partiya üzvlərini inandırması çətindir. Səsvermədən sonra jurnalistlərə açıqlama verən xanım Qrin əmin edib ki, spikerin kənarlaşdırılması üçün uyğun anı gözləyəcək: "Nümayəndələr Palatasının üzvləri şənbə günü Vaşinqtonu bir həftəlik fasiləyə tərk ediblər və bu müddət ərzində konqresmenin sözlərinə görə, onlar mütləq seçicilərlə ünsiyyətdə olacaqlar və öz narazılıqlarını bildirəcəklər. Mən minnətdaram ki, Amerika Consonun necə bir insan olduğunu və buna səs verən insanların kim olduğunu görə biləcək". Onun sözlərinə görə, spikerin çıxarılması ideyasına dəstək hər gün artır. "Əgər bu gün səsvermə olsaydı, o, kürsüsünü saxlamazdı. O, pul yığa bilməyəcək. Hamı bilir ki, biz gələn il Nümayəndələr Palatasında çoxluğu əldə edə bilməyəcəyik.

Eyni zamanda, Marjorie Taylor Grin jurnalistlərin Respublikaçılar Partiyasından prezidentliyə namizədi və Ağ Evin keçmiş rəhbəri Donald Trampın daha əvvəl spikerə verdiyi dəstəyi necə qiymətləndirmək barədə sualını qaçıraraq cavablandırıb. "Tramp xəbərləri izləyir və nə baş verdiyini bilir" deyib. Spiker Mayk Consonu dəstəkləyən eks-prezident Ukraynaya pul ayrılmasına yaşıl işıq yandırıb. Eks-prezident isə səsvermədən əvvəl partiya yoldaşlarına ziddiyyətli siqnallar verib. Cənab Consonu qəbul edərək ona mənəvi dəstək verərək, o, aşağı palatada mühafizəkarlar arasında müzakirələrdən bir neçə gün istirahət edib, ola bilsin ki, bütün diqqətini məhkəmə işlərinə yönəldib.

Özünün TruthSocial sosial şəbəkəsində o, cəmi bir neçə gün əvvəl yazıb: "Ukraynanın sağ qalması və gücü bizim üçün deyil, Avropa üçün daha vacib olmalıdır, amma bizim üçün də vacibdir! Dəyişkən Co Bayden və səriştəsiz Demokratlar üzündən bu tam ixtilafdır. Əgər mən prezident olsaydım, bu müharibə heç vaxt başlamazdı!".

Amerikalılar isə ümid edirdilər ki, Tramp Şimali Karolinada seçki kampaniyası zamanı baş verənlərlə bağlı öz mövqeyini daha aydın ifadə edəcək, lakin fırtına xəbərdarlığı və tədbirin ləğvi səbəbindən bu ümidlər özünü doğrultmayıb.

**V.VƏLİYEV**

TƏHLİL

# Sağlamlıq turizmi

***Mülayim iqlimi, günəş şüası ilə yanaşı, bol yağışı, bəyaz qarı Azərbaycanın təbiətinə rəngarənglik qatır. Həm florası, həm də faunası ilə zəngin olan Azərbaycanın hər bir bölgəsinin təbiəti digər bölgənin təbiətindən xeyli dərəcədə fərqlənir. Belə məkana sahib olan Azərbaycan turist ölkəsi olaraq tanınıb. İstər qədim dövrlərdə, istərsə də sovet məkanında yaşadığımız zamanda Azərbaycan təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə xarici vətəndaşların diqqətində olub.***



Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara, Şuşanın, Laçının sərin bulaqları və əzəmətli dağları və meşələri də turizm üçün əlverişli məkandır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar var ki, qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdırlar.

Ölkəmizdə turistlər üçün diqqətçəkən məkanlar dövlət tərəfindən xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini-mədəni abidə kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb.







Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülüb. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanıb və yayılıb, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilib.

Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənib, turizm sahəsində həyata keçirilən dövlət proqramları, layihələr bu sahəsində böyük uğurlara səbəb olub. Ölkəmizdə turizmin müxtəlif növləri inkişaf edib. Qış turizmi, yay turizminə malik olan ölkəmizdə sağlamlıq turizmi, istirahət turizmi, idman turizmi və s. mövcuddur. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımız səfalı və müalicəvi əhəmiyyətə malikdir.

## PALÇIQ VULKANININ MÜALİCƏVİ ƏHƏMİYYƏTİ

Zəngin relyefə və təbiətə malik olan Azərbaycanın vulkanların sayına, müxtəlifliyinə və aktiv fəaliyyətinə görə dünya ərazisində oxşarı yoxdur. Palçıq vulkanları ekoturizmin inkişafı üçün yaxşı obyektlər hesab edilir. Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron yarımadasında yayılıb və onlardan bəziləri təbiət abidəsi kimi formalaşıb. Bu vulkanlar ölkəmizin təbii sərvəti olmaqla yanaşı, həm də xaricdən turistlərin cəlb olunması, ekoturizmin inkişafı üçün mühüm zəmin yaradır.Palçıq vulkanı müalicəvi əhəmiyyətə də malikdir. Belə ki, vulkanların palçığından 10-dan çox xəstəliyin müalicəsində istifadə olunur. Vulkan palçığı dəri, onurğa sütunu, mədə-bağırsaq traktı, şəkərli diabet xəstəlikləri, urologiya, kosmetologiya sahələri və s. üçün faydalıdır. Azərbaycana gələn turistlər palçıq vulkanları ilə tanış olmağa meyillidirlər. Mütəxəssislərin qənaətinə görə, Azərbaycanda vulkan palçığı neftlə qarışıq olduğu üçün o daha keyfiyyətlidir, kimyəvi tərkibinə görə Naftalan nefti ilə təxminən eynidir.

Dünyada olan 1700 palçıq vulkanından 700-ü ölkəmizdədir. Əsasən, Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır. Azərbaycanda 2 vulkan çox nadir hallarda rast gəlinən vulkanlardan sayılır ki, bunlar Qobustandakı "Qoturdağ" və "Çeyildağ" vulkanlarıdır. Palçıq vulkanları həm müalicəvi xüsusiyyətinə, həm də maraqlı təbiət hadisəsi olduğuna görə turistlərin diqqətindədir.

## DAVA-DƏRMANSIZ MÜALİCƏ "İSTİSU"

Ölkəmizdə bütün növ turizmlə yanaşı, sağlamlıq turizmin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksəkkeyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Duzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından və s. insanlar yararlanırlar. Masallının istirahət mərkəzləri arasında "İstisu"yun öz yeri var. Buraya gələnlər dincəlməklə yanaşı, müxtəlif xəstəliklərdən də yaxa qurtarmaq imkanı əldə edirlər. "İstisu" sanatoriyası uzun illər primitiv şəkildə fəaliyyət göstərirdi. Masallı şəhərindən 13 kilometr aralıda, qərar tutmuş sanatoriya Dəmbəlov dağının döşündə, Viləş çayının sahilində yerləşir. Tərkibində hidrogensulfid, natrium-xlor kalsium, maqnezium-hidrokarbonat və hər litrində 30 milliqram yod var. Bu məhlul xəstəlikləri dava-dərmansız sağaldır. Qədim dövrlərdən yerli sakinlər bu sudan müalicə kimi istifadə ediblər. Dəmbəlov dağının döşündən çıxan isti su ilə revmatizm, oynaq ağrıları, artroz kimi fəsadları, pisarioz, germatit, neyrodermit, göbələk xəstəliyi, ekzema, böyrək və sidik yolları xəstəlikləri – pielit, uretrit, piolonefrit, habelə radikulit, prostatit, hipertoniya, qara ciyər xəstəlikləri və öd xəstəlikləri, qadın xəstəlikləri, mədə-bağırsaq ağrıları, travmatik ağrılar müalicə oluna bilər.

## DUZDAĞ – SAĞLAMLIĞIN BƏRPASINDA ƏVƏZOLUNMAZ YER

Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi də turistlərin sevimli istirahət və müalicə məkanıdır. Yay aylarında təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün Naxçıvan şəhərindən cəmi 12 kilometr məsafədə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayında hər il artım müşahidə olunur. Duzdağ sağlamlığını bərpa etmək istəyənlər üçün əvəzolunmaz yerdir. Keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzinin şöhrəti hər tərəfə yayılıb. Burada tətbiq olunan müalicə üsulu mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir.

Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti müalicənin müsbət nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa duz şaxtasına daxil olması, il ərzində havanın sabit müsbət 20 dərəcə temperaturda qalması, 24 faiz nisbi rütubət, oksigenin havadakı miqdarının 20 faiz təşkil etməsi, sıfıra bərabər hava cərəyanı və zəhərli qazların son dərəcə minimum səviyyəsi Duzdağın müalicəvi effektini artıran əsas amillərdəndir.

Görülən işlər ölkəmizin turizm potensialının daha da üzə çıxarılmasına istiqamətlənib. Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənib. İşğaldan azad olunan ərazilərdə turizm mərkəzləri yaradılır. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə xəstəlikləri müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Qarabağ bölgəsinin təkrarolunmaz təbiəti, səfalı yerləri və tarixi abidələri buranı qısa bir zaman məsafəsində turizm məkanına çevirəcək.

Mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirilləcək, turizm imkanlarımız daha da artacaq.

*Nəzakət ƏLƏDDİNQIZI*



"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **I** | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 23132 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 43786 |
| **2** | **Qısamüddətli aktivlər** | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X | 5 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 5 |
| | Cəmi qısamüddətli aktivlər | | 5 |
| | CƏMİ AKTİVLƏR | | 43791 |
| | **KAPİTAL VƏ ÖHDƏIİKLƏR** | | |
| **3** | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (78885) |
| | Cəmi kapital | | 21830 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 21961 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 21961 |
| | **Cəmi öhdəliklər:** | | 21961 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 43791 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ TƏSƏRRÜFAT MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 12880 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 12880 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 8280 |
| 2. | DSMF, İTS və işsizlik fonduna | 2029 |
| 3. | Vergi ödəmələri | 1110 |
| 4. | Amortizasiya xərcləri | 2084 |
| 5 | Sair xərclər | 1474 |
| | Cəmi xərc: | 14977 |
| | Əsas fəaliyyətin mticəsi -Ziyan | 2097 |
| | Ümumi nəticə -Ziyan | 2097 |

"Şamaxı Sərnişin" ATSC-nin idarə heyyətinin sədri: Nəhmətov M.Ə.

# "Bu cür tədbirlər Azərbaycana uğur gətirəcək"

***"30 ilə yaxındır ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisini işğal altında saxlayırdı". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.***




O bildirib, bu ərazilərdən də biri Şuşa şəhəri idi: "Şuşa şəhəri Azərbaycanın tarixi ərazilərindən biri olmaqla yanaşı qədim mədəniyyət mərkəzi olub. Ümumilikdə Azərbaycanın hər torpağı Azərbaycan xalqı üçün müqəddəsdir. Xüsusilə də Şuşa şəhəri müqəddəsdir. Şuşa şəhəri Azərbaycan mədəniyyətinə böyük sənətkarlar bəxş edib. Şuşa şəhəri bir çox tədbirlərə ev sahibliyi edib. Beynəlxalq tədbirlərin Şuşa şəhərində keçirilməsi və beynəlxalq aləmin diqqətinin Azərbaycana, onun dilbər guşəsi olan Şuşaya cəlb edilməsi Azərbaycan dövlətinin siyasətinin tərkib hissəsidir. İslam əməkdaşlıq təşkilatının gənclər paytaxtı elan edilməsi, gələcəkdə bütün tədbirlərin Şuşada keçirilməsini Azərbaycanın xarici siyasətinin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır".

Onun sözlərinə görə, Şuşa şəhərinə olan diqqətə işğal olunmuş ərazilərə olan diqqətin tərkib hissəsi kimi baxmalıyıq: "İşğaldan azad olunmuş ərazilərdə abadlıq işləri gedir. Bu, böyük tikinti meydançasına bənzəyir. Həmin ərazidə hava limanının tikintisi, beynəlxalq tədbirlərin Şuşada keçirilməsi və həmin hava limanına təyyarələrin enib-qalxması bir daha onu göstərir ki, Azərbaycan işğal olunmuş əraziləri qısa müddətdə abadlaşdıracaq. Eyni zamanda da Şuşa şəhərinin tarixi Azərbaycan ərazisi olmasını bir daha sübut etmiş olacaq. Hesab edirəm ki, beynəlxalq tədbirlərin işğaldan azad olunmuş ərazilərdə keçirilməsi Ermənistanın Azərbaycana vurduğu ziyanı nümayiş etdirməklə yanaşı quruculuq işlərini də beynəlxalq aləmə çatdırmaq məqsədi daşıyır. Şuşada keçiriləcək hər bir tədbir Azərbaycanın xarici və daxili siyasətinin tərkib hissəsidir. Bununla yanaşı Şuşaya gələcək xarici qonaqları Azərbaycanın dilbər guşəsinin 30 ilə yaxın işğal altında olmasını bir daha təqdim edəcək. Qısa müddətdə azad olunmuş ərazilərdə yeni quruculuq işlərinin aparılması beynəlxalq aləmin diqqətinə çatdırılır.

Azərbaycanın Şuşa şəhəri qədim Azərbaycan torpağı olmaqla yanaşı Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə verir. Bu baxımdan Şuşa şəhərində keçiriləcək hər tədbir beynəlxalq aləmin diqqətini Azərbaycana cəlb edəcək. Bu cür tədbirlər Azərbaycana uğur gətirəcək. Bu da işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə bir daha töhfə verəcəkdir".

***Söylü Ağazadə***

# "Azərbaycanlıların öz yurd-yuvasına qayıdışı bu bölgəyə yeni nəfəs verib"

"Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri, "Böyük Qayıdış" proqramının icrası plan üzrə davam edir. Təsadüfi deyil ki, ötən il 5 minə yaxın keçmiş məcburi köçkün soydaşımız öz doğma torpaqlarına qayıdıb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Könül Nurullayeva deyib. O bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş, 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb: "Proqramda nəzərdə tutulmuş 100 yaşayış məntəqəsinin 52-nin layihəsinin konseptual həlli qəbul edilib, dövlət başçısı tərəfindən 30-dan çox yaşayış məntəqəsinin təməli qoyulub. Cəmi 9 aya inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan hava limanı istifadəyə verilib, Laçın rayonunda hava limanının tikintisi davam edir. Bu vaxta qədər 22 yol layihəsindən 6-nın tikintisi artıq başa çatıb.Ötən ay Füzuli şəhərinə daha 35 ailə - 138 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 666 ailə, 2517 nəfərin daimi məskunlaşması təmin edilib. Eyni zamanda bu günlərdə Laçın şəhəri və rayonun Zabux kəndinə yeni köçürülən ailələrə mənzillərinin açarları təqdimat edilib. Laçın şəhərində 472 ailənin, yəni 1773 nəfərin, Zabux kəndində 215 ailə, 819 nəfərin daimi məskunlaşması təmin edilib.Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. İl ərzində Xocalı, Xankəndi, Şuşa sakinlərinin də öz evlərinə qayıtması planlaşdırılır".Deputat qeyd edib ki, "Böyük Qayıdış Proqramı"nın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq: "Məlumdur ki, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.Dövlət başçımızın da bəyan etdiyi kimi, biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan edib. Azərbaycanlıların öz yurd-yuvasına qayıdışı bu bölgəyə yeni nəfəs verib. Dövlət soydaşlarımızın təhlükəsiz və rahat yaşaması üçün bütün tədbirləri həyata keçirir. Sakinlərin aktiv məşğulluğunun təmin olunması da əsas prioritetlərdən biridir".

***Ləman Sərraf***




# "Bütün bunlar ölkədə kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açır"

***"Azərbaycan Prezidenti İlham Əliyev aprel ayının 16-da Hacıqabula səfəri çərçivəsində Şirvan suvarma kanalının təməlini qoyub. Bu hadisə bir daha göstərdi ki, ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində ardıcıl və sistemli addımlar atılmaqdadır.***

Burada məqsəd ilk növbədə ölkənin dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək və xüsusilə regionlarda məşğulluq probleminin həllinə ciddi töhfələr verməkdən ibarətdir. Bu nöqteyi-nəzərdən dövlət başçısı vurğuladı ki, Şirvan suvarma kanalı kimi ölkəmizdə ikinci ən böyük infrastruktur layihəsinin həyata keçirilməsi nəticəsində 10 rayonumuzun su təminatında çox ciddi irəliləyişə nail olunacaq. Kanalın uzunluğu 120 km idisə, yenidən qurulduqdan sonra bu rəqəm 200 km-i ötəcək". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev aprelin 8-də 1958-ci ildə əsası qoyulmuş Yuxarı Şirvan adlandırılan bu suvarma kanalının adının dəyişdirilməsi ilə bağlı sərəncam imzalayıb: "Artıq Şirvan suvarma kanalı adlandırılır. Nəticə etibarilə artıq 230 min hektarlıq ərazinin su ilə təminatı reallaşdırılacaq. Bununla da həmin bölgədə kənd təsərrüfatı məhsullarının inkişafı üçün imkanlar daha da genişlənəcək.

Bundan əlavə ölkəmizdə qazlaşdırılmanın səviyyəsi 96%-ə çatıb. Elektrikləşmə məsələlərində Azərbaycan artıq ixracatçı ölkəyə çevrilib. Eyni zamanda, Azərbaycan bərpa olunan enerji sahəsində də dünyada tanınan ölkələrdən birinə çevrilib. Təsadüfi deyil ki, iqlim dəyişiklikləri ilə bağlı keçirilən COP29 tədbirinə də Azərbaycan ev sahibliyi edəcək".

Deputat qeyd edib ki, Şirvan suvarma kanalı ilə yanaşı həm də gələn ildən Qarabağ kanalının tikintisi həyata keçiriləcək: "Qarabağ kanalı ilə 9 rayonu əhatə edəcək. Söhbət 115 min hektarlıq ərazinin suvarılmasından gedir. Bütün bu layihələrin reallaşdırılması təbii ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində uğurların əldə edilməsi üçün ciddi imkanlar yaradıb. Onu da qeyd edim ki, Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad edilməsi nəticəsində ölkəmizdə suvarma işləri yeni mərhələyə daxil olub. Nəzərə alsaq ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkəmizin su potensialının 25%-ni özündə ehtiva edir, bu ərazilərin suvarılması üçün çox unikal şərait yaradır. Bütün bunlar onu göstərir ki, dövlət başçısının atdığı addımlar məqsədyönlüdür və ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açır".



***Ləman***

# Ermənistan Haaqada nə axtarır?



Reuters

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.***



*"İrəvan Qərbdəki dostlarının dəstəyi ilə, eyni zamanda, Fransadan gələn təxribatçıların iştirakı ilə yenidən qisas müharibəsinə hazırlaşır"*



Beynəlxalq Ədalət Məhkəməsi Ermənistan və Azərbaycanın iddialarına baxmağa başlayıb. İndi məhkəmə tərəflər arasında Azərbaycanın Ermənistanın iddiasına verdiyi ilkin etirazlara həsr olunmuş arqumentlərə baxır. Bu proses aprelin 15-dən 19-dək baş tutub. Ermənistanın Azərbaycanın iddiasına verdiyi ilkin etirazlar üzrə dinləmələr isə aprelin 22-26-na təyin edilib.

Bakı əmindir ki, guya ermənilərə qarşı cinayətlər haqda ona qarşı irəli sürülən qondarma ittihamların heç bir əsası yoxdur. İddiaların mahiyyəti ondan ibarətdir ki, Ermənistan irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyaya uyğun olaraq 2021-ci il sentyabrın 16-da Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanla bağlı prosesə başlayıb. İddiada Azərbaycan 2020-ci ilin sentyabrında ermənilərə qarşı fəaliyyət göstərməkdə ittiham olunur. Bakı əks iddia qaldırıb və qeyd edir ki, Ermənistan regionda azərbaycanlılara qarşı etnik mənşəyinə görə ayrı-seçkilik törədib. Hər iki tərəf proses zamanı gərginliyin artmasının qarşısını almaq üçün məhkəmə tərəfindən müəyyən edilən müvəqqəti tədbirlərin tətbiqini tələb edib. Bu tələblər qismən təmin edilib.

Ermənistan tərəfindən 28 sentyabr 2023-cü ildə Beynəlxalq Ədalət Məhkəməsinə müvəqqəti tədbirlərlə bağlı yeni müraciətlər edilib. Müraciətdə 10 bənd var ki, bunlar arasında "Azərbaycanın Qarabağdan qalan etnik ermənilərin köçürülməsinə yönəlmiş və ya təsir edən hər hansı hərəkətlərdən çəkinməsi tələbi" yer alır. Bakı bütün bu ittihamları rədd edib.

Məhkəmədə çıxış edən Azərbaycan nümayəndəsi Elnur Məmmədov artıq bəyan edib ki, Ermənistan tərəfindən irəli sürülən ittihamlar irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın əhatə dairəsinə daxil olmadığı üçün məhkəmənin bu işə baxmaq səlahiyyəti yoxdur.

Bundan əlavə, Azərbaycan tərəfinin fikrincə, Ermənistan mübahisənin ikitərəfli qaydada həlli üçün Azərbaycan tərəfi ilə danışıqların lazımi qaydada aparılmasının məcburi şərtini yerinə yetirmədiyi üçün iddiaya baxılması da qəbuledilməzdir.

Maraqlıdır, Ermənistan bu iddiaları ilə öz problemlərini beynəlxalq müzakirəyə çıxarmaqla son nəticədə nəyə nail olur? Ola bilərmi ki, İrəvan bu hərəkətləri ilə ancaq informasiya hay-küyü yaratmağa çalışır? Bəlkə beynəlxalq ictimaiyyətin diqqətini




Ermənistana yönəltməklə iqtisadi və hərbi yardım şəklində siyasi üstünlüklərə tez nail ola biləcəkləri düşünürlər?

Əcnəbi şərhçilər bu mövzu ilə bağlı fikirlərini "Caliber" analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin fikirlərini təqdim edirik.

**Rusiyalı politoloq, PolitRUS ekspert-analitik şəbəkəsinin təsisçisi Vitali Arkov** hesab edir ki, bu gün Qarabağda qalan erməni millətindən olan sakinlərin təhlükəsiz yaşaması rəsmi Bakının insanlara qarşı milliyyətinə görə ayrı-seçkilik nümayiş etdirməməsinin bariz sübutudur.

"Bu baxımdan, Qarabağın erməni əhalisinin Ermənistana və digər ölkələrə son köçü Azərbaycanın öz ərazisinə tam nəzarəti bərpa etməsinin nəticələri ilə bağlı tamamilə əsassız qorxularla bağlı idi. Qarabağdakı dinc ermənilərin böyük əksəriyyətinin heç bir təhlükəsi yox idi. Əksinə, Azərbaycan hakimiyyətinin yaxın gələcəkdə həyatın davam edəcəyi Qarabağ bölgəsinin kommunal, yol və sosial infrastrukturunun bərpası istiqamətində həyata keçirdiyi genişmiqyaslı işlər nəticəsində onların həyat keyfiyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşmağa başlayacaqdı. O bölgə getdikcə Ermənistanın əksər ərazilərindəkindən daha rahat olur", - ekspert bildirib.

Onun sözlərinə görə, bu, tamamilə göz qabağındadır: keçən əsrin 80-90-cı illərinin əvvəllərində Qarabağın azərbaycanlı əhalisinə qarşı zorakılıq aksiyalarında bilavasitə iştirak edənlər, həmçinin hərbi cinayətlər və təxribat törədənlər üçün qorxulu idi.

"Lakin bu halda Azərbaycan qanunvericiliyi ilə cinayətkar hesab olunan şəxslərə münasibət ciddi şəkildə beynəlxalq hüquq çərçivəsindədir ki, biz artıq saxlanılan şəxslərlə bağlı işlərdə də müşahidə edə bilərik. Bu isə erməni millətçilərinin həm işğal etdikləri Qarabağda, həm də Ermənistanın özündə azərbaycanlı əhaliyə qarşı etdikləri ilə kəskin ziddiyyət təşkil edir. Qanlı hadisələrin 30 ildən artıq bir müddət əvvəl baş verməsinə baxmayaraq, bu cinayətlərin iddia müddəti yoxdur.

Etiraz oluna bilər ki, o zaman azərbaycanlılar da ermənilərə qarşı qəddarlıq nümayiş etdirdilər. Bəli, bəzi hallarda bu baş verdi. Bunu edən konkret insanları bəhanə etmədən, yenə də diqqət yetirməyə dəyər ki, bunlar əksər hallarda cavab hərəkətləri idi. Bu, birincisi. İkincisi, bu, əlbəttə ki, çoxmillətli Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi deyildi və indi də deyil. Eyni şeyi faktiki olaraq monoetnikləşmiş Ermənistan haqqında demək olmaz",- Arkov deyir.

O, bütün bu illər ərzində qoyun dərisinə bürünmüş canavarı müşahidə etdiyimizə diqqət çəkir: üç onillikdir ki, Azərbaycan torpaqlarını işğal altında saxlayan rəsmi İrəvan dünya ictimaiyyətini Ermənistanın qətiyyən işğalçı deyil, bədbəxt qurban olduğuna inandıra bilib .

"Və etiraf etməyə dəyər: o, Qərbdəki "dostlarının" dəstəyi ilə qismən uğur qazanır. Eyni zamanda, Fransadan gələn təxribatçıların iştirakı ilə yenidən qisas müharibəsinə hazırlaşırlar. İndi də beynəlxalq qurumların azərbaycanlı əhalinin soyqırımını tanıyan qərarlarının icrasına ehtiyac qalmamaq üçün rəsmi İrəvan bu cür qərarların qəbul edilməsinin qarşısını almağa çalışır. Həm Avropa İttifaqında, həm də ABŞ-dakı nüfuzlu himayədarları vasitəsilə, həm də faciəli hadisələrin təhrif olunmuş şərhi, hətta açıq şəkildə saxtalaşdırılan "təkzibedilməz faktlar"la əks iddialar irəli sürməklə prosesi ləngitməyə çalışırlar", - deyə Arkov qeyd edib.

**Rusiyalı politoloq Mixail Neyjmakov** hesab edir ki, Ermənistanın Beynəlxalq Məhkəməyə müraciətləri (həm 2021, həm də 2023-cü illərdə) Nikol Paşinyanın həm daxili, həm də xarici siyasət məqsədlərinə uyğundur.

"Daxili siyasi vəzifələr nöqteyinəzərindən Ermənistanın baş naziri üçün güzəştlərə deyil, beynəlxalq platformalarda İrəvanın maraqlarının təbliğinə diqqət yetirməklə yanaşı, fəaliyyətsiz olmadığını ictimaiyyətə nümayiş etdirməsi vacib idi. 2023-cü il sentyabrın sonu etnik ermənilərin Qarabağdan kütləvi şəkildə köçməsi fonunda Ermənistan daxilində etiraz fəallığının kəskin artdığı dövrdür.

2021-ci ilin sentyabrında və ondan bir qədər əvvəl daxili siyasi vəziyyət Nikol Paşinyan üçün daha az təhlükəli idi, lakin buna baxmayaraq, hələ 2021-ci ilin yayında İrəvan və Bakı arasında mümkün qeyri-ictimai danışıqların versiyaları ortaya çıxdı. Azərbaycan tərəfi hazır idi, Ermənistan media məkanında bu, kifayət qədər fəal müzakirə olunurdu. Müəyyən şəraitdə bu, ölkədə etiraz fəallığının yeni yüksəlişi üçün əlavə amil ola bilər. Əbəs yerə deyil ki, məhz o zaman ölkə "Ermənistan Milli Assambleyası" nın müxalifət fraksiyasından olan deputatı İşxan Saqatelyan (o vaxt- parlamentin vitse-spikeri) küçə etirazlarının yenidən başlaya biləcəyini bəyan edərək, "Ermənistanın dövlətçiliyi təhlükə altındadır"- deyə bəyan etdi. Hər iki halda, Nikol Paşinyanın komandası üçün alternativ gündəm vacib idi ki, heç olmasa tamaşaçıların hakimiyyətə sadiq qalmasını təmin etsin",- Neyjmakov yekunlaşdırır.

Onun fikrincə, xarici siyasət məqsədləri nöqteyi-nəzərindən bu iddiaların irəli sürülməsi digər məsələlərlə yanaşı, İrəvanın danışıqlarda mövqeyini gücləndirmək niyyəti ilə əlaqələndirilə bilər.

"Deyək ki, 2024-cü ilin martında Nikol Paşinyan qeyd etdi ki, "bunun sabit və davamlı sülhü təmin etdiyini görsək, Ermənistanın Azərbaycana qarşı iddiaları geri götürülə bilər". Bu, həm də bu iddiaların gələcək taleyi ilə bağlı sualın danışıqların predmetlərindən biri ola biləcəyinə işarə kimi də başa düşülə bilər.

Nəhayət, siyasətdə aktiv olanın dəstək toplamaq və müttəfiqləri "ələkdən keçirmək" şansı daha yüksəkdir. Təbii ki, ümumiyyətlə, Cənubi Qafqazdakı vəziyyət adətən Qərb ölkələrində ictimaiyyətin diqqət mərkəzində deyil, xüsusən nəzərə alsaq ki, indi hər kəsin dodaqlarında daha çox rezonanslı hekayələr var- Ukraynadakı Rusiya-NATO münaqişəsindən tutmuş Orta Şərqdə və Böyük Britaniyadakı gərginliyə qədər. Bu səbəbdən BMT-nin Beynəlxalq Cinayət Məhkəməsində Bakı ilə İrəvan arasında baş verən mübahisə ilə bağlı xəbərlərin çoxu çox güman ki, Qərb auditoriyası tərəfindən arxa planda qəbul olunacaq. Bununla belə, Yerevan üçün bu, həm də bu vəziyyətə qarışmış xarici tərəfdaşlara (ilk növbədə Ermənistanı dəstəkləməyə meylli siyasətçilərə) öz maraqlarını xatırlatmaq üçün mühüm səbəbdir", - deyə Neyjmakov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# “Tik tok”dan necə pul qazanmaq olar?




*“Video əsaslı sosial şəbəkə platforması olan "TikTok"u 2016-ci ildə Çinin “Byte Dance” şirkəti bazara çıxarıb. "Tiktok"-dan müxtəlif üsularla pul qazanmaq imkanı əldə edənlər mövcuddur. “Infulencer” olaraq, pul qazanmaq yolunu seçənlər var. "TikTok"da istehsal etdiyi məzmunla məhşurlaşanlar və müxtəlif markalarla sövdələşmə edənlər var. Müxtəlif brendlərin məhsullarını tanıtmaqla pul qazanmaq mümkündür. "Tiktok" hesabını böyüdərək, hesabı satıb, pul qazanmaq istəyənlər mövcuddur”. Bu sözləri SİA-ya informasiya texnologiyaları üzrə mühəndis-tədqiqatçı Bəhruz Əliyev deyib.*

Onun sözlərinə görə, “Tiktok Creator Marketplace” brendləri və məzmun istehsalçılarını bir araya gətirən platformadır: “Məzmun istehsalçılarını sponsorlu məzmun yaratmaq və buna görə, ödəniş almaq kimi, “Tiktok Creator Marketplace” vasitəsilə brendlərlə əməkdaşlıq mümkündür.

”TikTok” məzmun istehsal edənləri dəstəkləmək üçün fond açaraq, proqram təklif edir. Bu fond müəyyən sayda izləyicisi və keyfiyyətli məzmunları olan istifadəçilərə ödəniş etməklə gəlir əldə etmək imkanı təqdim edir. Bu fond Amerika, Fransa, İngiltərə, Almaniya, İtaliya və İspaniyada yaşayan məzmun istehsalçılarının müraciət edə biləcəyi proqramdır. Ödənilən pul baxış sayı və təqibçi sayı əsasında hesablanır”.

Ekspert bildirib ki, bu proqrama qoşulub, pul qazanmaq üçün bir sıra tələblərə cavab vermək lazımdır: 18 yaşdan böyük olmaq, 10.000 təqibçisi olmaq, son 30 gündə videolara 100.000 baxışı olması, ABŞ, İngiltərə, Fransa, İspaniya, vəya İtaliyada yaşadığınız halda, ”TikTok” icma qaydalarına və şərtlərinə əməl edildiyi halda və s. Bu şərtlərə cavab verənlər fonda müraciət edə bilər.



**EKSPERT AÇIQLADI**

Əsas pul qazanma mənbəsi isə birbaşa ”TikTok” ilə, ortaq formada pul qazanmaq imkanıdır. ”TikTok” isə bu məsələyə bir qədər fərqli yanaşaraq, pul qazanmaq imkanını canlı yayında mümkün edir. Belə vəziyyətdə istifadəçilər daha çox canlı yayın açaraq pul qazanmağa çalışırlar. İzləyicilər canlı yayın açanlara müxtəlif virtual hədiyyələr verə bilirlər. Canlı yayını açan şəxs isə bu hədiyyələri sonradan real pula çevirə bilir. Verilən hədiyyələrin təxmini olaraq 50%-i ”Tiktok”a, qalanı isə hədiyyələri qəbul edən şəxsə qalır. Canlı yayından pul qazanmaq üçün əsas olaraq, 18 yaş və 1000 nəfər təqibçi tələb olunur. ”Tiktok”da məzmun istehsal edənlərə bəxşişlər vermək mümkündür. İstifadəçilər məzmun istehsalçısına video hədiyyələri də göndərə bilər. Bu video istehsalçılarını dəstəkləmək istəyənlər üçün yaradılmış üsuldur. Təbii ki bunun üçün video istehsalçıları, 18 yaşdan böyük, 10000 təqibçi və ayda 1 dəfə video yükləmiş olmalıdır. ”Tiktok” üzərindən elekton ticarət etmə imkanı da mövcuddur”.

***Ləman Sərraf***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Panik atak psixoloji, yoxsa fiziki xəstəlikdir?



**AYDINLIQ GƏTİRİLDİ**

***“Panik atak fizioloji simptomlarla müşahidə olunan psixoloji problemdir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib. O bildirib ki, panik ataka fiziki xəstəlik demək olmaz: ”Əlamətləri insan fiziologiyasında təzahür edir. Ürək döyüntüləri, tərləmə, təzyiqin qalxması, bütün bu simptomlar artıq insanın zehnində yaratdığı düşüncələrin fonunda mövcud olur. Müəyyən yaşda, hər hansı travmadan, problemdən sonra qaynaqlana bilər, yaxud da səbəbsiz yerə insanı müəyyən zamanda yaxalaya bilər.***

Panik atakı müəyyən etdikdən, analizi düzgün təyin etdikdən, öz analizini bildikdən sonra insan bilə bilər ki, onda təşvişə, həyəcan pozuntusuna, panik atakların yaranmasına səbəb nə olur. İnsan bunu özündə müəyyən etdikdən sonra sanki bu problemin müalicəsinin 60%-ni müəyyən etmiş olur. Panik ataklar hər insanda mövcud ola bilər. Hər hansı hadisə ilə əlaqədar, travmatik stressdən sonra, insan bədənində yaranan ağrıların sayəsində də mövcud ola bilər. İnsan ağrıyır, qorxuları var, öləcəyini düşünür, narahatlıqlar onu rahat buraxmır deyə, bu düşüncələr vüsət alır və daha da sürətlənir. Bədəndə fizioloji əlamətlərlə özünü göstərir”.

***Söylü Ağazadə***

## Devid Bekhem Hollivud aktyoru ilə məhkəməlik oldu - 8,5 milyon avroya görə...






“İnter Mayami” klubunun sahibi, ingiltərəli futbol ulduzu Devid Bekhem Hollivud aktyoru Mark Uolberqin şirkətini məhkəməyə verib. 48 yaşlı Bekhem bu yaxınlarda aktyorun fitnes brendi F45-in siması olmağa razılaşıb. Lakin sövdələşmə uğursuz olub və nəticədə sabiq futbolçu maliyyə itkisinə məruz qalıb. Bekhemin 8,5 milyon avro itirdiyi bildirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200